QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 241 (5713) **20 dekabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Azərbaycanla Həştərxan arasında tarixi əlaqələr mövcuddur”

*Prezident İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin nümayəndə heyətini qəbul edib*

Səh 2




Dövlətimiz tərəfindən ölkə vətəndaşlarının sosial təminatı gücləndirilir



5

Mir Cəlal Paşayevin “Ədəbi tənqid” və “Publisistika” kitablarının təqdimatı olacaq




4

Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib



4

Heydər Əliyev Fondunun Pekində təşkil etdiyi konsert Çin KİV-lərinin diqqət mərkəzində olub



4

Türkiyəli qonaqlar: “Naxçıvan Türk dünyasının bir parçası kimi bizə əziz və doğmadır”



8

Almaniyanın məşhur “Nitro” jurnalı Ermənistan - Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərdən yazır



7

11

Şərəfsizliyin və əxlaqsızlığın Rafael Piriyev nümunəsi



13

“Dağlıq Qarabağ ermənilərinin ən böyük düşməni Ermənistan ermənləridir”



16

Qarabağ atları London Beynəlxalq Atçılıq Şousunda çıxış edəcək



# "Azərbaycanla Həştərxan arasında tarixi əlaqələr mövcuddur"

*Prezident İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Sergey Morozovun bu vəzifəyə təyin olunmasından keçən qısa bir müddət ərzində Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi və bunu uğurlu əməkdaşlığımızın təzahürü kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanla Həştərxan arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək, bu gün əməkdaşlığın genişləndiyini və birgə layihələrin həyata keçirildiyini vurğuladı və bütün bunların Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirdi. Həştərxanda Azərbaycan İşgüzar Mərkəzinin fəaliyyət göstərdiyini, Bakıda da Həştərxan İşgüzar Mərkəzinin inşasına başlanıldığını qeyd edən dövlətimizin başçısı təhsil, mədəniyyət sahələrində əməkdaşlığın yaxşı səviyyəsindən məmnunluğunu ifadə etdi və turizm sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin mövcud olduğunu dedi. Prezident İlham Əliyev bir daha Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında əməkdaşlığın uğurla və davamlı şəkildə inkişaf edən Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini bildirdi və ikitərəfli əlaqələrimizin genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif beynəlxalq səviyyədə təmaslarının rolunu xüsusi olaraq qeyd etdi.



Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Rusiya Prezidenti Vladimir Putinin Xəzəryanı ölkələrlə əməkdaşlığın genişləndirilməsi barədə tapşırıqlar verdiyini qeyd edərək ilk səfərini Azərbaycana həyata keçirdiyini məmnunluqla vurğuladı. O, nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək Bakıdakı inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyən Sergey Morozov bunun Rusiya-Azərbaycan ikitərəfli münasibətlərinin inkişafı işinə xidmət etdiyini bildirdi.

Sonra Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın inkişafına və dostluq münasibətlərinin möhkəmlənməsinə verdiyi böyük töhfəyə görə Prezident İlham Əliyevə "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordenini təqdim etdi. Sonda xatirə şəkli çəkdirildi.

## Rəsmi xronika

Prezident İlham Əliyev aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, 2018-ci il 28 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 manat məbləğində birdəfəlik yardım ödənilsin.

Birdəfəlik yardımın maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində ünvanlı dövlət sosial yardımı və sosial müavinətlər üçün nəzərdə tutulmuş vəsaitin xərclənməmiş qalıq hissəsindən 5 milyon manat ayrılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılır ki, birdəfəlik yardımın ünvanlı dövlət sosial yardımı alan ailələrin hesablarına köçürülməsini təmin etsin. Nazirlər Kabineti və Maliyyə Nazirliyinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

* * *

Prezident İlham Əliyev Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olan bəzi qurumların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1335-VKQD nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan xarici diplomatiyasının növbəti qələbəsi



Azərbaycanın əzəli və tarixi torpağı olan Dağlıq Qarabağı Ermənistanın təcavüzü nəticəsində, 25 ildən çoxdur ki, işğal altında saxlayır. Ermənistanın 1992-ci il fevralın 26-da törətdiyi Xocalı soyqırımı zamanı şəhərin 613 dinc sakinini, o cümlədən, 106 qadın və 63 uşağı qətlə yetirərək, hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın sabiq prezidenti Serj Sarkisyandır. Onu da qeyd etmək lazımdır ki, bu soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Ermənistan 26 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bu ikili standarta əsaslanan yanaşmadır və bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir.

### Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı birgə bəyanat qəbul olundu

ATƏT Minsk Qrupunun həmsədr ölkələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq üçün işləri davam etdirməyə razılaşıblar. Bu barədə Milanda keçirilən ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində keçirilmiş görüşün yekunları ilə bağlı ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin, Azərbaycanın və Ermənistanın nümayəndə heyətlərinin rəhbərlərinin birgə bəyanatında deyilir.

Sənəddə deyilir ki, ATƏT Minsk Qrupunun həmsədrləri (Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları və Fransa), Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zorab Mnatsakanyan Dağlıq Qarabağ münaqişəsinin ədalətli və davamlı sülh yolu ilə həlli istiqamətində işlərin davam etdirilməsi barədə razılığa gəliblər.

Bəyanatda qeyd edilir ki, həmsədr ölkələr Azərbaycan və Ermənistan liderlərinin sentyabrda Düşənbədə keçirilən MDB sammitinin kluarlarında söhbətindən sonra atəşkəs rejiminin pozulması hallarının azalmasını alqışlayırlar: "Tərəflərə orada əldə olunmuş razılaşmaları davam etdirməyə və əhalini sülhə hazırlamaq üçün konkret tədbirlər görməyə çağırış edilib. Həmsədr ölkələr yaxın gələcəkdə Azərbaycan və Ermənistan liderləri səviyyəsində konkret nəticələrə və münaqişənin ədalətli və davamlı sülh yolu ilə həllinə istiqamətlənmiş intensiv dialoqun bərpa ediləcəyinə ümid etdiklərini bildiriblər".

Bəyanatda qeyd edilir ki, Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zorab Mnatsakanyan münaqişənin sülh yolu ilə həlli üzrə intensiv fəaliyyətə sadiq olduqlarını bir daha bəyan ediblər: "Onlar 2019-cu ilin əvvəlində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin himayəsi altında bu məqsədlə və yüksək səviyyəli danışıqlara hazırlıq məqsədilə görüşməyə razılaşıblar".

Bəyanatda həmçinin qeyd olunur ki, tərəflər münaqişənin həlli istiqamətində həmsədr ölkələrin aktiv iştirakını və yaxşı niyyətli vasitəçilik səylərini, eləcə də, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin fəaliyyətini təqdir ediblər.

*İlham Əliyev: "Dağlıq Qarabağ münaqişəsinin həlli bölgədə sülhün təmin edilməsi üçün birinci və başlıca şərtdir. Bu məsələ həll olunmadan bölgədə heç bir başqa məsələ öz həllini tapa bilməz"*

Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması Ümummilli Lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutan ən vacib məsələ olub. Yalnız onu qeyd etmək kifayətdir ki, 1993-2003- cü illər ərzində Ulu Öndər Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk Qrupunun nümayəndələri ilə 140-a qədər görüş keçirmişdir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ilk gündən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirir və bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirir. Ölkə Prezidenti İlham Əliyev ölkəmizin xarici siyasətinin əsas prioriteti olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bütün çıxışlarında bəyan edir. Dövlət başçısı bütün xarici səfərlərdə, eləcə də, Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək, Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman barışmayacağını, ehtiyac yarandığı halda, hərbi əməliyyatların başlanmasına qərar veriləcəyini vurğulayır.

Lakin Ermənistan tərəfi aparılan danışıqlar prosesində həmişə qeyri-konstruktiv mövqedən çıxış edərək, bu prosesi uzatmağa çalışır.

Münaqişənin nizama salınması prosesində Azərbaycan və Ermənistan tərəflərinin mövqelərində müəyyən fərqlər qalmaqdadır. Azərbaycan dövlətinin mövqeyi əvvəlki kimi birmənalıdır. Yəni Ermənistan Dağlıq Qarabağ ətrafında işğal etdiyi əraziləri mərhələli şəkildə azad etməli, məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar. Bundan sonra isə, keçid dövründə Laçın və Kəlbəcər rayonlarının azad edilməsi ilə, eyni zamanda, Dağlıq Qarabağ və Ermənistan arasında dəhlizin yaradılması mümkündür.

Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu dəfələrlə bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, əgər Dağlıq Qarabağın erməni icması iştirak etmək istəyirsə, onda onlar Dağlıq Qarabağın azərbaycanlı icması ilə danışıqlara gedə bilərlər: "Buna görə də, Ermənistan, ilk növbədə, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etməli, işğalçılıq siyasətinə son qoymalı, sonra isə münaqişənin nizamlanmasının variantları barədə öz mövqeyini bildirməlidir".

Münaqişənin nizama salınması prosesində Azərbaycan dövləti və onun başçısı İlham Əliyev, ilk növbədə, sülh variantına üstünlük verir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqının və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunu beynəlxalq hüquq normaları ilə təsdiq etdiyini vurğulayır.

Bir məqama da toxunmaq lazımdır ki, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk Qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməmişdir. ATƏT çərçivəsində yaradılan Minsk Qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin dondurulmuş şəkildə qalmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar. Lakil bütün bu çətinliklərə baxmayaraq, Azərbaycanın uğurlu və proqmatik xarici siyasəti nəticəsində, bu gün ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində keçirilmiş görüşün yekunları ilə bağlı ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin, Azərbaycanın və Ermənistanın nümayəndə heyətlərinin rəhbərlərinin birgə bəyanatı qəbul olunub. Bu da Azərbaycan xarici diplomatiyasının növbəti qələbəsidir.

**RƏFİQƏ HÜSEYNOVA**

# Heydər Əliyev Fondunun Pekində təşkil etdiyi konsert Çin KİV-lərinin diqqət mərkəzində olub







Heydər Əliyev Fondunun və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Pekində təşkil edilən Azərbaycan-Çin dostluq konserti yerli KİV-lərin diqqət mərkəzində olub. AZƏRTAC xəbər verir ki, Çinin milli xəbər agentliyi olan Sinxua, Çin Mərkəzi Televiziyası, "Jenmin Jibao", "Global Times" və "China Daily" qəzetləri, "China.org" və "Chinanews" internet nəşrləri, digər kütləvi informasiya vasitələri konsert haqqında ətraflı xəbərlər, reportajlar hazırlayıb yayıblar.

Materiallarda Azərbaycanın zəngin mədəniyyətinin və musiqisinin Çində tanıdılması ilə bağlı tədbirlər silsiləsindən olan konsertin iki xalq arasında dostluğu və mədəni mübadiləni möhkəmləndirdiyi qeyd edilir.

Konsertdən əvvəl çıxış edən Baş nazirin müavini Əli Əhmədovun və Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xonun fikirlərinə istinadla vurğulanır ki, iki xalq arasında tarixi İpək Yolu dövründən başlayan münasibətlər müasir dövrdə daha da genişlənib. Azərbaycan "Bir kəmər, bir yol" strategiyası üzərində yerləşən vacib bir ölkə kimi bu təşəbbüsün həyata keçməsində fəal iştirak edir. Bildirilir ki, Pekinin ən böyük konsert sarayı olan İfaçılıq Sənəti Milli Mərkəzində təşkil olunan konsertdə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini, Azərbaycan xalq mahnılarını, Çin ənənəvi musiqi parçalarını məharətlə ifa ediblər.

Çin Mərkəzi Televiziyası Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun dostluq konserti ilə bağlı müsahibəsini də yayımlayıb.




# Mir Cəlal Paşayevin "Ədəbi tənqid" və "Publisistika" kitablarının təqdimatı olacaq

Dekabrın 21-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı ədib, professor Mir Cəlal Paşayevin "Ədəbi tənqid" və "Publisistika" kitablarının təqdimatı keçiriləcək. Kitabxanadan AZƏRTAC-a bildirilib ki, kitab Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən nəşr olunub.




Qeyd edək ki, 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal Paşayev, elə həmin ildə ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib

*Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyinə əsasən Dövlət Neft Fondunun 2019-cu il üçün büdcə layihəsi, investisiya siyasəti, valyuta vəsaitinin idarə edilməsi və digər məsələlər müzakirə olunub.*



Dövlət Neft Fondu tərəfindən Fondun 2019-cu il üçün büdcə layihəsi barədə təqdim edilən məlumata əsasən 2019-cu ildə Dövlət Neft Fondunun büdcəsinin baza göstəricisi olan 1 barel neftin ortaillik ixrac qiyməti növbəti il üçün dövlət büdcəsi ilə eyni - 60,0 ABŞ dolları səviyyəsində götürülüb. Bu göstəriciyə uyğun olaraq Fondun 2019-cu il üzrə büdcə gəlirlərinin ümumi həcminin 15 450,1 milyon manat, büdcə xərclərinin 11 595,2 milyon manat təşkil etməsi və Fondun büdcəsində 3 854,9 milyon manat profisitin yaranması proqnozlaşdırılır.

Dövlət Neft Fondunun 2019-cu il üçün investisiya siyasətinin müzakirəsi zamanı qeyd edilib ki, Neft Fondunun növbəti il üzrə investisiya portfelində xarici valyutalarda ifadə olunan aktivlərin çəkisi ABŞ dollarında 50 faiz, avroda 35 faiz, İngilis funt sterlinqində 5 faiz, digər valyutalarda isə 10 faiz səviyyəsində olması proqnozlaşdırılır.

Xərclərin strukturunda məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə əlaqədar bəzi tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər 200,0 milyon manat, Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddi 11 364,3 milyon manat, Fondun idarə edilməsi ilə bağlı xərclər 30,9 milyon manat məbləğində olması proqnozlaşdırılır.

Eyni zamanda, iclasda Fondun 2019-cu ilin büdcə layihəsinə dair Azərbaycan Respublikası Hesablama Palatasının rəyi müzakirə edilərək irəli sürülən nəticə və tövsiyələrin baxılmasına dair tapşırıqlar verilib. Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalarda dəyişikliklərin edilməsi barədə təklifləri müzakirə olunub və Şuranın üzvləri tərəfindən irəli sürülən təklif və tövsiyələrin nəzərə alındığı bildirilib.

Müzakirələrin nəticəsi olaraq, Müşahidə Şurası tərəfindən Dövlət Neft Fondunun 2019-cu il büdcəsinin gəlirlərinin 15 450,1 milyon manat, xərclərinin 11 595,2 milyon manat, o cümlədən Fondun idarə edilməsi ilə bağlı xərclərin 30,9 milyon manat məbləğində müəyyən edilməsi məqsədəuyğun sayılıb və müvafiq olaraq Dövlət Neft Fondunun 2019-cu il büdcə layihəsi, o cümlədən investisiya siyasəti daxil olmaqla, Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri və Neft Fondunun idarə edilməsi ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab olunaraq, təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilib.

Həmçinin Dövlət Neft Fondunun valyuta vəsaitinin idarə edilməsi qaydalarının təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ında təklif edilən dəyişikliklər məqbul sayılıb və bu dəyişikliklərin təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə olunub.

# Dövlətimiz tərəfindən ölkə vətəndaşlarının sosial təminatı gücləndirilir

## *İlham Əliyev: “Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il, ən azı 800 mənzil veriləcəkdir”*





Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə dövlət başçısı tərəfindən həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindəndir. Bu gün ölkəmizdə əlilliyi olan şəxslər dövlət qayğısı ilə hərtərəfli təmin olunublar. Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb, sosial təminatları ildən-ilə daha da yaxşılaşır. Əlilliyi olan şəxslərin maddi və mənəvi təminatlarının gücləndirilməsi, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası, ictimai həyatın bütün sahələrində fəal iştirakına geniş imkanlar açılıb.

Şəhid ailələrinə diqqət və qayğının davamı olaraq, Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar, xəbərsiz itkin düşdüyünə görə, ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” imzaladığı məlum Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə, ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə, Fərmanla müəyyənləşdirilmiş qaydada, 11 min manat məbləğində birdəfəlik ödəmə verilir.

Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində çıxışı zamanı, vurğuladığı kimi, builki prezident seçkilərindən dərhal sonra imzaladığı birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur:”Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində, minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır”.

Bu Fərman Azərbaycan vətəndaşına, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həyatını qurban vermiş, sağlamlığını itirmiş insanlara olan münasibətin bir göstəricisidir. Azərbaycanda xüsusi təbəqə hesab edilən şəhid ailələrinin problemlərinin həlli, onlara diqqət və qayğının göstərilməsi daim Azərbaycan Prezidentinin siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Prezident, məhz seçkilərdən sonra belə bir Fərman imzalamaqla, bir daha göstərdi ki, ölkəmizdə şəhidlərə və onların ailələrinə, Qarabağ veteranlarına olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Təbii ki, Azərbaycanın dövlət büdcəsi buna imkan verməsə, iqtisadiyyatımız inkişaf etməsə, bu cür addımlar atmaq mümkün olmaz.

Elə bu yaxınlarda Abşeron rayonunun Məmmədli kəndindəki “Göy qurşağı” yaşayış kompleksində yeni yaşayış binalarından alınmış 145 mənzil şəhid ailələrinə, Qarabağ müharibəsi və 20 Yanvar əlillərinə təqdim edilməsi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında sosial cəhətdən həssas qruplara diqqət və qayğının artırılması, habelə, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin mənzillə təminatı işlərinin ildən-ilə gücləndiyinin bariz nümunəsidir. Dövlət başçısının 2 avqust 2018-ci il tarixli Sərəncamı ilə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 2018-ci ildə, əlavə olaraq, minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılması 2018-ci ildə həmin kateqoriyalardan olan insanlara, nəzərdə tutulduğundan 2,8 dəfə çox olmaqla, 600-ə yaxın mənzilin təqdim edilməsinə imkan verib. Hazırda, verilən mənzillər də daxil olmaqla, şəhid ailələrinə və əlilliyi olanlara bu günədək təqdim edilən mənzillərin sayı 6208-ə çatır. Ölkə başçısı İlham Əliyev çıxışında bildirib ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də, son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. “Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il, ən azı 800 mənzil veriləcəkdir” - deyən Prezident İlham Əliyev bu kateqoriyadan olan insanların, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə də təmin olunduqlarını diqqətə çatdırıb.

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər və bu qayğı dərin minnətdarlıq hissi ilə qarşılanır.

Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir.

Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən, əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli ilə bağlı işlər görülür. Həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbaycan Prezidentinin Fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzilin verilib. Bu günlərdə Sabunçu rayonunda 394 hərbçi ailəsinə dövlət tərəfindən mənzillərin verilməsi hərbçilərə yeni mənzillərin verilməsi bu diqqətin nümunəsidir. “Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir” - deyən ölkə Prezidenti bunu dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürü və nümunəsi olduğunu vurğulayıb: “Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin və hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır”.

**Nəzakət ƏLƏDDİNQIZI**

# 72 mənzil şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib









Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Abşeron rayonunun Mehdiabad qəsəbəsində yeni yaşayış binalarından alınmış 72 mənzil şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib. ƏƏSMN-in mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, mənzillərin təqdim olunması zamanı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli vurğulayıb ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial siyasətinin prioritetlərindən biridir. Qeyd olunan kateqoriyalara aid vətəndaşların mənzillə təminatı işləri ildən-ilə genişlənir. Dövlətimizin başçısı bir neçə gün öncə - dekabrın 17-də hərbçilərə yeni mənzillərin verilməsi mərasimində çıxışı zamanı bu sahədə görülən işləri qeyd edərək, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün son illərdə minlərlə ev və mənzilin tikilərək təhvil verildiyini bildirib. Cənab Prezident "Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcək", deyib.

V.Nəsirli şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin maddi təminatlarının gücləndirilməsi üçün onların Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdləri, pensiya və müavinətlərlə təminatının da həyata keçirildiyini, şəhid ailələrinin və müharibə əlillərinin uşaqlarına aylıq sosial müavinət ödənildiyini bildirib. O, həmçinin dövlət başçısının müvafiq Fərmanına əsasən şəhid ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verildiyini diqqətə çatdırıb. Nazir müavini qeyd edib ki, bugünədək artıq 2897 şəhid hərbi qulluqçu üzrə 3856 vərəsəyə birdəfəlik ödəmənin verilməsi üçün qərarlar qəbul olunub. Həmin qərarlar əsasında müvafiq vəsaitlərin ödənişi davam etdirilir.

Yeni mənzillə təmin olunanları təbrik edən V.Nəsirli növbəti ildə cari ildəkindən çox olmaqla, azı 800 mənzilin şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinə təqdim olunmasının planlaşdırıldığını bildirib. Yeni mənzillərlə təmin olunan şəhid ailələri və Qarabağ müharibəsi əlilləri onların sosial müdafiəsinin gücləndirilməsi, eyni zamanda mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən razılıq ifadə edərək, göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Sonra mənzillərin püşkatma qaydasında, obyektiv və ədalətli şəkildə paylanması həyata keçirilib.

# YAP Qaradağ rayon təşkilatı Şurasının iclası keçirilib





Yeni Azərbaycan Partiyasının (YAP) Qaradağ rayon təşkilatı Şurasının iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda Partiyanın yeni üzvlərinin qəbulu ilə əlaqədar ərazi ilk partiya təşkilatlarının qərarları qəbul olunub.

YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov çıxış edərək gündəlikdə duran məsələlərdən danışıb. Bildirib ki, rayon təşkilatı 2018-ci ildə öz fəaliyyətini partiyanın Nizamnamə və Proqramına, rayon təşkilatının müvafiq Fəaliyyət Planına uyğun qurub: "Rayon təşkilatı daim səylə çalışıb, təşəbbüskarlıq göstərib, Ümummilli Lider Heydər Əliyev ideyalarının yaşadılmasında və təbliğində mühüm fəaliyyət həyata keçirib. Ölkə Prezidenti İlham Əliyevin uğurlu və məqsədyönlü siyasi rəhbərliyinin, ölkəmizin davamlı inkişafının və tərəqqisinin cəmiyyətə, insanlara çatdırılması, rayon təşkilatının sıralarının keyfiyyət göstəriciləri baxımından daha da genişlənməsi, partiya üzvləri arasında mövcud əlaqələrin daha da intensivləşdirilməsi və yüksək səviyyəyə çatdırılması istiqamətində yorulmadan çalışıb. Rayon təşkilatının fəaliyyətində, həmçinin Qaradağ rayonunda görülən işlərin cəmiyyətə çatdırılması da yer alıb".

Tədbirdə Sədərək ticarət mərkəzi ərazi ilk partiya təşkilatın sədr müavini Ələkbərov Sabir, Gəmiqayırma MMC zavodu ərazi ilk partiya təşkilatın sədr müavini Namiq Vəliyev, Qaz emalı zavodu ərazi ilk partiya təşkilatın sədr müavini Ələkbər Bayraməliyev, 180 saylı tam orta məktəb ərazi ilk partiya təşkilatın sədri Malik Qasımov və digərləri çıxış edərək görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıblar. Rayon Şurasının Gənclər Birliyi və Qadınlar şurasının 2019 cu ilin 1-ci yarım illik fəaliyyət proqramı təsdiq edilib. Ərazi ilk partiya təşkilatlarında partiya üzvlərinin uçotunun dəqiqləşdirilməsi və cari məsələlər müzakirə olunaraq müvafiq qərarlar qəbul olunub.

# Baş konsul: "Ermənistan Azərbaycana qarşı ekoloji soyqırımı törədir"



Azərbaycanın Los-Ancelesdəki baş konsulu, Los-Anceles konsulluq korpusunun duayeni Nəsimi Ağayev Los-Ancelesdə fəaliyyət göstərən "ECONEWS" teleradio şirkətinə geniş müsahibə verib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, müsahibə "ECONEWS" teleradio şirkətinin rəhbəri Nensi Perlman tərəfindən aparılıb.

Qeyd olunmalıdır ki, sözügedən şirkət ABŞ-da ətraf mühit və turizmlə bağlı radio və televiziya proqramlarının hazırlanması ilə tanınır və üç dəfə məşhur "Emmi" mükafatına namizəd olub.

Müsahibədə baş konsul N.Ağayev Azərbaycanın coğrafi mövqeyi, müstəqillik tarixi, zəngin mədəniyyəti, əsrarəngiz təbiəti, turizm potensialı və iqtisadi inkişafı barədə ətraflı məlumat verib. Azərbaycanın qədim tolerantlıq və multikulturalizm ənənələrindən danışan N.Ağayev bu gün ölkəmizdə dini və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsin qarşılıqlı anlaşma, hörmət və sülh şəraitində birgə yaşadıqlarını diqqətə çatdırır. Baş konsul Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda gedən çağdaş dövlət quruculuğu işlərinin uğurla davam etdirildiyini vurğulayıb.

Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında məlumat verən baş konsul ölkəmizin işğal olunmuş ərazilərində Ermənistanın ekoloji terror törətməkdə davam etdiyini bildirib. N.Ağayev Ermənistanın məişət tullantılarını, sənaye müəssisələrinin çirkab sularını və radioaktiv maddələri Araz çayına axıdaraq Azərbaycan ərazisinə ötürməklə ölkəmizə qarşı ekoloji soyqırımı həyata keçirdiyini diqqətə çatdırıb. O, Ermənistanda heç bir təhlükəsizlik standartlarına cavab verməyən Metsamor atom elektrik stansiyasının istismarının davam etdirilməsinin bütün region üçün böyük təhlükə daşıdığını qeyd edib, beynəlxalq ictimaiyyətin bu addımlara son qoymaq üçün Ermənistana təzyiq göstərməsinin vacibliyini vurğulayıb. Qeyd edək ki, müsahibə Kaliforniya da daxil olmaqla ABŞ-ın 21 ştatında fəaliyyət göstərən 35 televiziya kanalında, eləcə də müxtəlif radiokanallarda yayımlanmaqdadır.

# "Audiokitab" layihəsi ilə bağlı tədbir keçirilib

***Dünən Beynəlxalq Mətbuat Mərkəzində "Audiokitab" yayım rəhbərliyi tərəfindən "Audiokitab" layihəsi haqqında sualları cavablandırmaq məqsədilə tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə layihəni ərsəyə gətirən yaradıcı şəxslər, ziyalılar, gənclər və KİV iştirak edib.***




Tədbirdə çıxış edən kitabın müəllifi Həsən Həsənov bildirib ki, Azərbaycanda ilk dəfə həyata keçirilən, dörd ilə yaxın bir vaxt ərzində ərsəyə gələn "Audiokitab" layhəsi çərçivəsində artıq 400-ə yaxın kitab peşəkar aktyorların ifasında səsləndirilib: "Artıq bir neçə gündür ki, "Audiokitab" dünyanın hər yerində yayımlanır. Ümid edirik ki, tezliklə "Audiokitab" həmvətənlərimizin daha sıx birləşməsi üçün bir vasitə olacaq. "Audiokitab" sayəsində Azərbaycan ədəbiyyatı bütün dünyada əlçatan olur, həmvətənlərimizi birləşdirir, xaricdə dünyaya gəlmiş gənc nəsildə Azərbaycan mədəniyyəti aşılamağa, onların ədəbi dili mənimsəməsinə kömək edir".

Daha sonra professor İlham Həsənov diqqətə çatdırıb ki, audiokitabların formatı ona görə rahatdır ki, kitabları nəqliyyatda - avtomobil, təyyarə, qatarda, gəzinti, istirahət zamanı, müəyyən işləri yerinə yetirərkən dinləməyə imkan verir: "Bundan başqa "Audiokitab" görməyən və zəif görən insanların Azərbaycan ədəbiyyatı və tarixi ilə tanış olmasına imkan yaradır".

"Audiokitab" layihəsinin redaktoru Fərid Nəsibov isə bildirib ki, layihədə klassik və müasir Azərbaycan ədəbiyyat nümunələri, dərs vəsaitləri, elmi kitablar və mühazirələr, Azərbaycan nağılları, şifahi xalq yaradıcılığı və xarici ədəbiyyat nümunələri öz əksini tapıb: "Layihənin əsas məqsədlərindən biri milli ədəbiyyat nümunələrimizin, tarixmizin ölkəmizdə və xaricdə yaşayan həmvətənlərimizə azərbaycan dilində çatdırılması və mədəniyyətimizin təbliğ edilməsidir. Daha sonra Safaroff Agency-nin rəhbəri Çingiz Səfərov və "Audiokitab" layihəsində mətnləri səsləndirən aktyor və aktrisalar çıxış edərək layihənin əhəmiyyətindən danışıblar.

Qeyd edək ki, "Audiokitab" yeni texnologiyalar vasitəsilə insanların klassik və müasir Azərbaycan və dünya yazıçıları və onların əsərləri haqqında məlumatlandırılması, mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin inkişaf etdirilməsinə dair fəaliyyət göstərən kommersiya təşkilatıdır.

# Almaniyanın məşhur "Nitro" jurnalı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərdən yazır


Bergkarabach
Spielball machtpolitischer Interessen

Almaniyanın məşhur "Nitro" jurnalında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin əks olunduğu məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalənin müəllifləri Bettina Şellonq-Lammel və Bernd Lammel münaqişənin tarixi, beynəlxalq ictimaiyyətin problemin həllinə yanaşma tərzi, müharibənin dinc sakinlərin həyatına vurduğu ağır zərbə, məcburi köçkünlərin gündəlik həyatı barədə faktlar, sənədlər və canlı şahidlərin fikirləri əsasında dolğun təsəvvür yaratmağa çalışıblar.

Azərbaycana səfər və araşdırmalar əsasında hazırlanmış məqalədə bu gün dünyada baş verən müxtəlif münaqişələr fonunda artıq onilliklərdən bəri davam edən Dağlıq Qarabağ münaqişəsinə beynəlxalq diqqətin azaldığı diqqətə çatdırılır. Vurğulanır ki, Almaniyanın Federal Kansleri Angela Merkelin münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında həllinə çalışacağına dair vədinin reallığa çevriləcəyi, yoxsa quru vəd olaraq qalacağı da sual doğurur.

Məqalədə "Dağlıq Qarabağ münaqişəsinin həlli yolu varmı?" sualına "Prinsipcə hə, amma..." cavabını verən müəlliflər bu "amma"nın arxasında hansı məsələlərin dayandığına aydınlıq gətirirlər. Qeyd edilir ki, Azərbaycan ərazisinin 20 faizini işğal edən Ermənistan bu işğalı dünya ictimaiyyətinə "azadlıq müharibəsi" kimi təqdim edir. Həmçinin işğal həmin ərazidə ermənilərin yaşaması ilə izah olunur və ərazi bütövlüyü prinsipinə məhəl qoyulmadan öz müqəddəratını təyinetmə hüququ əsas götürülür.

Ötən əsrin 80-90-cı illərinə nəzər salan müəlliflər Sovet İttifaqının süqutu ərəfəsində milli və dini zəmində təsvir edilən münaqişə ocaqlarının yarandığını qeyd edirlər. Bildirilir ki, bəzən Ermənistan və Azərbaycan arasında davam edən münaqişə bu kontekstdə interpretasiya edilir. Dinc əhali üçün qəbuledilməz olan status-kvo hətta ATƏT-in Minsk qrupunun həmsədrlərini də çıxılmaz vəziyyətə salıb. İşğal olunmuş ərazilərə 2010-cu ildə ilk dəfə səfər edən həmsədrlər öz hesabatlarında münaqişədən əvvəl mövcud olmuş şəhər və kəndlərin işğaldan sonra tamamilə dağıdıldığını qeyd ediblər.


Armenien hat im Laufe des Krieges 20 Prozent des Territoriums von Aserbaidschan besetzt und deklariert sein Handeln als „Befreiungskrieg".

Məqalədə bildirilir ki, BMT Nizamnaməsinin ikinci maddəsinin dördüncü bəndi əsas götürülərək münaqişə ilə bağlı 1993-cü ildə qəbul edilmiş qətnamələrə məhəl qoyulmur və bu vəziyyət 27 ildən çoxdur ki, davam edir. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini işğal atlında saxlamasına baxmayaraq, Yerevan Azərbaycanı Dağlıq Qarabağdakı erməni əhalisinə hücum etməkdə ittiham edir. Hətta Ermənistanın sabiq prezidenti Serj Sarkisyan 2016-cı ildə Berlinə səfəri zamanı bu məsələyə primitiv cavab da vermişdi. O, ermənilərin Dağlıq Qarabağda yaşamalarının onların həmin əraziyə etnik iddialarını və öz müqəddəratlarını təyinetmə hüququnu əsaslandırmaq üçün kifayət etdiyini demişdi. Onun cavabında isə orada yaşayan digər millətlərdən heç söhbət belə getmirdi.


Journalisten-Sicht
Status quo und Fazit

Yazıda ermənilərin Dağlıq Qarabağ ərazisinə kütləvi şəkildə köçürülməsinin tarixinə də diqqət yetirilir. Bu ərazilər uğrunda maraqların XVIII əsrdə daha da kəskinləşdiyi və yekunda Rus imperiyasının həmin ərazilərdə öz mövqeyini möhkəmləndirdiyi qeyd edilir. Vurğulanır ki, bunun ardınca 120 min erməni Türkiyə və İrandan indiki Azərbaycan ərazilərinə köçürülür. Sovet İttifaqı tərəfindən yüksək muxtariyyət statusu verilən Dağlıq Qarabağa erməni köçü dayanmaq bilmir. SSRİ-də yüksək vəzifələr tutmuş, Stalinin silahdaşı olmuş Anastas Mikoyan 1945-ci ildə Livandan erməni ailələrinin SSRİ-yə köçürülməsi barədə sərəncam imzalayır. SSRİ-nin ən qanlı siyasətçilərindən biri olan, NKVD-nin ölüm siyahılarını imzalayaraq günahsız insanları ölümə göndərən və Polşada Xatın qətliamında əli olan Mikoyan onilliklər boyunca kütləvi deportasiyalar formasında daxili kolonializm siyasəti aparırdı. Krım tatarları, Volqa almanları, eləcə də digər xalqlar süni səbəblərlə kütləvi şəkildə öz yurd-yuvalarından didərgin salınırdılar. Mikoyanın ermənilərlə bağlı imzaladığı dekret isə onların Türkiyə və ya Ermənistana köçürülməsini deyil, məhz Dağlıq Qarabağa köçürülməsini nəzərdə tuturdu. Türkiyədən deportasiya edildikdən sonra klanlaşmış erməni icması yerli cəmiyyətə inteqrasiya etmirdi, onlar, əksinə, mütəşəkkil cinayətkarlığa, narkotik ticarətinə və beynəlxalq terrorizmə meyilli idi. Bu icmanın Monte Melkonyan kimi tanınmış simaları Parisin Orli hava limanında və ya Moskva metrosunda cinayət aktları törədiblər. Müəlliflər ermənilərin Dağlıq Qarabağa köçürülmələrinə dair bir faktı da oxuculara təqdim edirlər. Qeyd olunur ki, 1978-ci ildə ermənilərin bu ərazilərə köçürülməsinin 150 illiyi münasibətilə ucaldılmış abidə bu faktı tarixdən silmək üçün məhz onların özləri tərəfindən məhv edilib. Məqalədə hazırda Azərbaycanda bu münaqişə nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkünün yaşadığı da vurğulanır. Diqqətə çatdırılır ki, Azərbaycan Hökuməti onların həyat şəraitinin yaxşılaşdırılması üçün müxtəlif tədbirlər görür, vaxtilə çadır düşərgələrində yaşayan insanlar artıq mənzillərlə təmin olunublar, 100 yaşayış məntəqəsində indiyədək 300 min mənzil tikilərək bu insanların istifadəsinə verilib. Bildirilir ki, bu gün Ermənistan Qarabağ ermənilərinin müqəddəratını təyinetmə hüququna istinad edərək öz iddialarını əsaslandırmağa çalışır, lakin hüquqi cəhətdən Dağlıq Qarabağ və onun ətrafındakı işğal edilmiş əraziləri geri qaytarmaq hüququ Azərbaycana məxsusdur.

Yekunda qeyd edilir ki, Cənubi Qafqazdakı bu münaqişə ocağının hər an alovlanma təhlükəsi var. Açıq müharibə bütün regionun sabitliyini poza və onun təsiri Avropaya da çata bilər. Əgər ATƏT-in Minsk qrupu münaqişənin sülh yolu ilə həllində ciddi irəliləyiş əldə etməsə, bu vəziyyət azərbaycanlıların səbrini tükəndirə bilər. Yerevandakı hazırkı vəziyyət risk amilidir. İndi Avropa İttifaqının və ATƏT-in diplomatik alternativlər təklif etməsi lazımdır.

***Elgün Niftəli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vyana***

# Türkiyəli qonaqlar: “Naxçıvan Türk dünyasının bir parçası kimi bizə əziz və doğmadır”



***Türkiyə Respublikasının Ərzurum Vilayətinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər çərçivəsində “Naxçıvan” Universitetində olub. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev qonaqlara universitet haqqında geniş məlumat verib. Rektor diqqətə çatdırıb ki, “Naxçıvan” Universiteti dünyanın 51 ali təhsil müəssisəsi ilə əməkdaşlıq əlaqələrinə malikdir. Ali təhsil ocağı üç beynəlxalq təhsil təşkilatının üzvüdür, beynəlxalq proqramlarda və layihələrdə iştirak edir. “Erasmus” xətti ilə AESOP EQAC layihələri, “Tempus” xətti ilə ENOTE və COMOLTE layihələrini həyata keçirib.***



Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı “Naxçıvan” Universiteti ilə Ərzurum Universiteti arasında 2014-cü ildən “Mövlana proqramı” çərçivəsində başlayan əməkdaşlığın uğurla davam etdirildiyini vurğulayıb. “Naxçıvan” Universiteti ilə tanışlıq, buradakı maddi-texniki təchizat və yaradılan müasir tədris şəraiti türkiyəli qonaqlarda məmnunluq doğurub.

Qonaqlar səfər çərçivəsində Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında türk şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, Möminə xatın türbəsi və Kazım Qarabəkir Paşa məscidi ilə tanış olublar.

AZƏRTAC-ın Naxçıvan bürosu türkiyəli qonaqların səfər təəssüratlarını öyrənib.

**Şimal-Şərqi Anadolu İnkişaf Agentliyinin baş katibi Osman Demirdöğen:** Ötən dövrdə bölgədə səhiyyə xidmətləri və qış turizminin inkişafını təmin etmək üçün proqram hazırladıq. Proqram çərçivəsində Gürcüstan, İran, Azərbaycan və digər qonşu ölkələrdə olduq, qarşılıqlı əməkdaşlıq üçün zəmin yaratdıq. Naxçıvana gəlişimizin məqsədi də məhz səhiyyə xidmətləri və qış turizmi sahəsində gələcək əməkdaşlığımızın istiqamətlərini müəyyənləşdirmək, bu sahədə görüləcək işləri müzakirə etmək idi. Görüşlər zamanı nəzərdə tutulan məsələlərlə bağlı fikir mübadiləsi aparıldı və görüləcək işlər müəyyən edildi. Bu gün Ərzurumdakı xəstəxanalarda tibbin ən müasir avadanlıqlarından istifadə edilir, həmin şəraiti burada tanıtmağı və Naxçıvanda olan imkanları da qayıdan kimi öz ölkəmizdə təbliğ etməyi nəzərdə tuturuq. Düşünürəm ki, bu görüşümüz imkanlarımızdan qarşılıqlı olaraq səmərəli istifadə etməyimizə geniş yol açacaq.

Onu da xüsusilə qeyd etməliyəm ki, bizi qədim türk yurdunda böyük qonaqpərvərliklə qarşıladılar, bir sıra təhsil və səhiyyə ocaqlarını gəzdik. Fikrimcə, Duzdağ Fizioterapiya Mərkəzi qədim diyarı müalicə turizmi baxımından xüsusilə cəlbedici edir, bizim ölkədən hər il yüzlərlə insan həmin mərkəzə üz tutur. Hər kəs müalicənin uğurla keçdiyini və müsbət nəticələr əldə olunduğunu vurğulayır. Qayıdandan sonra bronxial-astma xəstəliyindən əziyyət çəkənlərə mərkəzin imkanları barədə daha geniş məlumatlar verib, xəstələri buraya göndərməyi düşünürük.

Bu, mənim Naxçıvana dördüncü səfərimdir. İlk dəfə 2003-cü ildə burada olmuşam və budəfəki səfərimdə qədim türk torpağının inanılmaz dərəcədə dəyişildiyinin, müasirləşdiyinin, böyük inkişaf yolu keçdiyinin şahidi oldum. Fikrimcə, əgər yüksəliş bu templə davam edərsə, gələcəkdə Naxçıvan bölgədə Dubay qədər önəmli rola malik ola bilər. Bizim də üzərimizə hansı vəzifə düşərsə, onu yerinə yetirməyə hazırıq. Naxçıvan bizə İqdır, Ərzurum qədər əziz və doğmadır. Belə gözəl qarşılanmaya və bizə yaratdıqları şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığımı bildirirəm.

**Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı:** Ərzurum valiliyinin rəhbərliyi altında Şimal-Şərqi Anadolu İnkişaf Agentliyinin təşkilatçılığı ilə Naxçıvanı ziyarətə gəldik. Səhiyyə, turizm və təhsil sahələrində naxçıvanlı həmkarlarla önəmli görüşlərimiz oldu. Naxçıvandakı ali təhsil ocaqlarında birgə əhəmiyyətli müzakirələr apardıq. Ərzurum Atatürk Universiteti bundan sonra da birgə proqramlar, araşdırmalar və digər təhsil məsələlərində dostluq və qardaşlıq münasibətləri çərçivəsində qarşılıqlı işbirliyinə daim hazırdır.

Onu da deyim ki, Naxçıvanda bir çox yerləri gəzdik. Belə gözəl diyara bu günə qədər nə üçün gəlməmişəm deyə, çox təəssüf edirəm. Hər yerdə çox gözəl qonaqpərvərliklə, mehribanlıqla və gülərüzlə qarşılandıq, özümü evimdə, ölkəmdəyəm kimi hiss etdim. Bir daha başa düşdüm ki, Türk dünyasının böyük oğlu Heydər Əliyevin də dediyi kimi, “biz bir millət, iki dövlətik”.

Bir sıra səhiyyə müəssisələrində, o cümlədən Duzdağ Fizioterapiya Mərkəzində olduq. Mərkəzin



nadir duz mağaralarına heyran qaldım. Burada bir çox xəstəliklərin müalicəsi mümkündür. Düşünürəm ki, bu mərkəz haqqında bütün dünya bilməlidir. Mən öz ölkəmdə də burada olan imkanlar barədə məlumat verəcəyəm və inanıram ki, gələcəkdə Türkiyədən Duzdağ Fizioterapiya Mərkəzinə gələcək turistlərin sayı daha da artacaq.

Naxçıvan Türk dünyasının bir parçası kimi əziz və doğmadır. Burada olmaqdan çox məmnunam və bundan sonra da tez-tez gələcəyəm.

**Şimal-Şərqi Anadolu İnkişaf Agentliyinin təqdimat və birgə əməkdaşlıq üzrə sədri Müzeyyen İnci:** Əvvəlcə deyim ki, qədim türk torpağında olmaqdan çox məmnunam. Naxçıvan olduqca gözəl, təmiz və abad şəhərdir, insanları istiqanlı və qonaqpərvərdirlər. Bura gəlişimizin əsas məqsədi Naxçıvanın mövcud turizm potensialını yaxından tanımaq, sonra müvafiq sahələr üzrə əməkdaşlığımızı müəyyən edərək müzakirələr aparmaqdır. Xüsusilə səhiyyə və qış turizmi sahəsində qarşılıqlı gediş-gəlişi təmin edib, bu sahədə üstünlüklərimizi bölüşərək daha da inkişafa nail olmağı düşünürük. Keçirilən görüşlərdə bütün məsələlərlə bağlı müzakirələr aparıldı və müsbət nəticələr əldə edildi.

Səfər müddətində xəstəxanalarda olduq, yaradılan imkanlarla maraqlandıq. Diqqətimizi, xüsusilə Naftalan nefti ilə aparılan müalicə çəkdi. Öyrəndik ki, Naftalan nefti güclü ağrıkəsici, iltihab əleyhinə, damargenişləndirici, antiseptik təsirlərə malikdir və müalicəsi olduqca səmərəlidir. Eləcə də Duzdağ Fizioterapiya Mərkəzi də hər birimizdə böyük maraq doğurdu. Onu da öyrəndik ki, xarici ölkələrdən, eyni zamanda, Türkiyədən hər il buraya bronxial-astma xəstəliyindən əziyyət çəkən çox sayda insan üz tutur və müalicədən də çox razılıq edirlər. Sözün düzü, yaxın qohum-əqrəbalardan, dost-tanışlardan da belə xroniki xəstəlik keçirənlər var və ölkəmizə qayıdan kimi onlara Naxçıvandakı bu möcüzə haqqında bəhs etməyi düşünürəm.

İnanıram ki, gələcəkdə qarşılıqlı əməkdaşlığımız daha da möhkəmlənəcək və insanlarımız xəstəliklərdən uzaq, sağlam həyat yaşayacaqlar.

**Atatürk Universiteti Səhiyyə Tətbiqi və Araşdırma Mərkəzinin baş həkimi Ali Şahin:** Səhiyyə və qış turizmi sahələrində əlaqələrimizi daha da təkmilləşdirmək üçün Naxçıvanda, bu gözəl diyarda bir araya gəldik. Naxçıvan təsəvvür etdiyimdən də gözəldir. Şəhərinizin çox səliqəli, nizamlı və modern bir üslubu var.

Biz burada öyrəndik ki, muxtar respublikada enerji sektoru, sənaye və kənd təsərrüfatı sahələri də xeyli inkişaf edib. Fikrimcə, gələcəkdə səhiyyə ilə birlikdə bu sahələr üzrə də bir çox layihələr gerçəkləşdirilə bilər. Xüsusən səhiyyə sahəsində orqan köçürülməsi, tibbi-onkoloji kimya terapiyası, eləcə də qış idman turizminin inkişafı ilə bağlı təcrübələrimizi bölüşə bilərik. Naxçıvanda qış turizmi üçün geniş imkanlar var. Bu turizm növü üzrə ən cəlbedici məkanlardan biri olan Ərzurum Vilayəti bu sahədə Naxçıvanla əməkdaşlıq imkanlarını daha da artıracaq, birgə daha geniş və perspektivli işlər həyata keçirəcək.



# Millət vəkili Eldəniz Səlimov: "Azərbaycan bütün beynəlxalq və regional qurumlarla əməkdaşlığa üstünlük verir"

"Azərbaycanda yeni gündə həm Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 39-cu iclası, həm də Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı öz işinə başladı. Hər iki tədbirdə də bölgəmiz, regionumuz və dünyamız üçün çox önəmli məsələlər müzakirə olundu, fikir mübadilələri aparıldı, ən əsası da, hər iki tədbir çox konstruktiv məcrada, qarşılıqlı anlaşma şəraitində keçdi". Bunu "Səs" qəzetinə açıqlamasında Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransının iştirakçısı olmuş millət vəkili Eldəniz Səlimov deyib. Onun sözlərinə görə, Azərbaycan bütün beynəlxalq və regional qurumlarla əməkdaşlığa üstünlük verir: "PAİ-nin Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransında dünyanın 44 ölkəsindən 250-yədək nümayəndə iştirak edirdi. Hansı ki, onların çoxu ilk dəfə idi ki, Azərbaycanda olur-



du, ölkəmizlə ilk tanışlıq fürsəti əldə edirdi, həmçinin, Azərbaycanın inkişafının sözdə deyil, əməldə özünü göstərdiyini öz gözləri ilə görmək şansı qazanırdı. Gəldilər, öz gözləri ilə gördülər ki, Azərbaycan bu gün dünyanın ən dinamik və ən sürətli inkişaf yolunda olan ölkəsidir, ətrafı qazan kimi qaynamasına, 30 ildən artıq haqsızcasına, ədalətsizcəsinə Qarabağ münaqişəsi yaşamasına baxmayaraq, yerləşdiyi regionun, coğrafiyanın sabitlik və təhlükəsizlik adasıdır". Millət vəkili bildirib ki, ikigünlük müzakirələr zamanı çox mühüm məsələlər nəzərdən keçirildi, hər bir ölkəyə öz mövqeyni ortaya qoymaq imkanı verildi, dünyamızla, gələcəyimizlə bağlı ən müxtəlif və maraqlı çağırışlar edildi, ideyalar, təkliflər irəli sürüldü və mesajlar verildi: "Həmçinin, maraqlı məqamlardan biri kimi, gənclərin cəmiyyətlərin, toplumların, dövlətlərin həyatlarındakı önəminə, perspektivinə və onların verə biləcəyi töhfələrə xüsusi diqqət yetirildi. Gənclərlə, gənclər siyasəti ilə bağlı məsələdə də Azərbaycanın örnək, nümunə ola biləcəyi söylənildi. Odur ki, hər iki tədbiri, xüsusən də, iştirakçısı olduğum Qlobal Konfransı çox yüksək qiymətləndirir, dəyərləndirir və həsab edirəm ki, bunlar Azərbaycanın növbəti siyasi-diplomatik uğurlarıdır. Bu uğurlar isə ölkəmizin gələcək inkişafında, o cümlədən, ağrılı problemimiz olan Qarabağ münaqişəsinin ədalətli həllində mütləq öz rolunu oynayacaq, öz töhfəsini verəcək".

**GÜLYANƏ**

## Mihal Svantner: Azərbaycan alimləri və startapçıları ilə aparılan fikir mübadiləsi gələcəkdə böyük problemlərin həllinə imkan verəcək



Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) İnkişaf edən ölkələrlə əməkdaşlıq şöbəsinin müdiri Mihal Svantner bildirib ki, bu təşkilatın Cenevrədə yerləşən baş qərargahında Azərbaycan tərəfi ilə birlikdə bu ölkənin innovativ startap şirkətlərinin sərgisini təşkil etmək sevindirici haldır: "Azərbaycan startapçıları bizə innovasiyaları və onların tətbiqi mexanizmini nümayiş etdirdilər. Ümumdünya Əqli Mülkiyyət Təşkilatı olaraq intellektual hüquqların, onların istifadəsini yaymaq və möhkəmləndirilməsinə çalışmaq bizim vəzifəmizdir".

M.Svantner bildirib ki, hazırda akademik təsisatların, xüsusilə universitetlərin innovasiyaları dəstəkləməsi, yeni çətinlikləri aradan qaldırmaq üçün atdığı addımlar təşkilat tərəfindən diqqətlə müşahidə edilir. Tək Azərbaycanda deyil, bütün dünyada süni intellekt və yeni texnologiyalarla bağlı sual və problemlər burada araşdırılır. Ona görə də bu tədbirdə Azərbaycandan olan alimlər və startapçılarla aparılan fikir mübadiləsi gələcəkdə böyük problemlərin həllini tapmağa imkan verəcək.

## Yanvar-noyabrda hava nəqliyyatı ilə daşınan sərnişinlərin sayı 2,3 faiz artıb

2018-ci ilin yanvar-noyabr aylarında hava nəqliyyatı ilə 2233,2 min və ya ötən ilin müvafiq dövrünə nisbətən 2,3 faiz çox sərnişin daşınıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilib.



# Nikol Paşinyan Serj Sarkisyanın kadrını özünə məsləhətçi-müşavir götürüb

*2016-cı ilin aprel müharibəsində böyük itkilərin verilməsində əsas günahkarlardan sayılan Arşak Karapetyanın bu təyinatı erməni ictimai-siyasi rəyində hiddət doğurub*

***Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın özünə məsləhətçi-müşavir olaraq, baş qərargahın kəşfiyyat idarəsinin sabiq rəisi, general-mayor Arşak Karapetyanı seçməsi erməni siyasi-ictimai rəyində və mətbuatda etirazlı rezonans yaradıb. Belə ki, 2016-cı ilin aprel müharibəsində böyük itkilərin verilməsində əsas günahkar kimi, məhz A.Karapetyan göstərilir. Ermənistan mediası xəbər verir ki, məhz 2016-cı ilin aprelində Qarabağ cəbhəsində uğradıqları məğlubiyyətdən sonra A.Karapetyanla yanaşı, müdafiə nazirinin müavini, material-texniki təchizat departamentinin rəisi Alik Mirzabekyan və rabitə rəisi, general-mayor Komitas Muradyan tutduqları vəzifələrdən azad olunmuşdular.***



### Arşak Karapetyan və onun rəhbərlik etdiyi idarə 2016-cı ildə ciddi məsuliyyətsizliyə yol verərək, kəşfiyyat işini düzgün qurmayıb

Hələ 2016-cı ilin aprelində Ermənistan parlamentinin müdafiə, milli təhlükəsizlik və daxili işlər üzrə daimi komissiyasının rəhbəri Koryun Naqapetyan jurnalistlərə bəyan etmişdi ki, müdafiə nazirliyinin yüksək rütbəli məmurlarının istefaya göndərilmələri, onların məsuliyyətsizliklərinin nəticəsidir. Erməni deputat, həmçinin, qeyd etmişdi ki, müharibə yeni problemləri üzə çıxardı ki, onlara operativ şəkildə reaksiya göstərmək lazımdır. Beləliklə, Ermənistanın ictimai dairələrində hələ də əmindirlər ki, A.Karapetyan və onun rəhbərlik etdiyi idarə 2016-cı ildə ciddi məsuliyyətsizliyə yol verərək, kəşfiyyat işini düzgün qurmayıb və s.

### "Hetq.am"-ın redaktoru Edik Baqdasaryan: "Belə şeylərə görə, adam ağlını da itirər"

Belə ki, "Hetq.am" nəşrinin redaktoru, araşdırmaçı-jurnalist Edik Baqdasaryan "Facebook" səhifəsində yazıb ki, A.Karapetyan 2016-cı ildə baş vermiş qısamüddətli müharibədə böyük itkilərin səbəbkarı olaraq, ən böyük məsuliyyəti daşıyıcısıdır. "O, mütləq cəzalandırılmalıydı, ancaq onu, sadəcə, vəzifəsindən azad etdilər. Azərbaycanın Silahlı Qüvvələri müxtəlif istiqamətlərdən hücumlarını həyata keçirərkən, heç bir kəşfiyyat işi aparılmamışdı. İndi o, yenə də at üstündədir. Belə şeylərə görə, adam ağlını da itirər" deyə erməni jurnalist Nikol Paşinyanın kadr təyinatını tənqid edərkən yazıb.

### Ekspert Samvel Martirosyan: "Erməni kəşfiyyatı Azərbaycanın İsrail istehsalı olan dron-kamikadzelərinə malik olması barədə məlumatları əldə edə bilməyib"

Bu arada, daha bir erməni ictimaiyyətçi - informasiya təhlükəsizliyi məsələləri üzrə ekspert Samvel Martirosyan sosial şəbəkə vasitəsi ilə yazıb ki, 2016-cı ildə erməni kəşfiyyatı Azərbaycanın İsrail istehsalı olan dron-kamikadzelərinə malik olması barədə məlumatları əldə edə bilməyib. "Nəticədə, bizim hərbçilər dronların onlara qarşı istifadə ediləcəyindən xəbərdar olmayıblar ki, bu da bizim tərəfimizdən ciddi itkilərə səbəb olub" deyə erməni eksperti bildirib: "Halbuki həmin ərəfələrdə mətbuatın yazdıqlarından da, bəlli olub ki, bir neçə ay öncə, İsrail bu silahı iki ölkəyə satıb. Əgər nəzərə alarsaq ki, İsrailin zərbə dronlarını satdığı ölkələrin siyahısı elə də böyük deyil, bu zaman hətta kəşfiyyat rəisi olmadan belə, müəyyən nəticələrə gəlmək mümkün idi".



Qeyd edək ki, 2018-ci ilin fevralında Arşak Karapetyan Ermənistanın Rusiyadakı hərbi attaşesi vəzifəsinə təyin olunmuşdu. Dekabrın 18-də isə, o, baş nazirin məsləhətçi-müşaviri vəzifəsinə irəli çəkilib. Bu təyinatı Paşinyanın mətbuat katibi Arman Yeqoyan da təsdiqləyib.

Beləliklə, bu kimi təyinatın erməni ictimai rəyində birmənalı qarşılanmadığı göz önündədir və əlaxüsus, Paşinyanın köhnə sistemdən olan və fəaliyyətlərində heç bir uğur qazana bilməyən insanları ətrafına cəlb etməsi, yəni Serj Sarkisyanın dövründə yüksək vəzifələrdə olanları yenidən müəyyən postlara irəli çəkməsi növbəti etirazların yaranmasına səbəb olacaq. Ən azından, artıq medianın bu məsələyə etirazlı münasibət nümayiş etdirməsi öz sözünü deməkdədir.

**Rövşən NURƏDDİNOĞLU**

# Frensis Qarri: Azərbaycanda gənclərin innovasiya sahəsində fəallığını gördüm

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) baş direktoru Frensis Qarri Azərbaycanda gənclərin innovasiya sahəsində fəallığını yüksək qiymətləndirib. Bunu Frensis Qarri Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Cenevrədə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan tədbir çərçivəsində deyib.

Beynəlxalq təşkilatın baş direktoru Frensis Qarri bildirib ki, əqli mülkiyyət innovasiyaların qorunması üçün əsas vasitələrdən biridir və Azərbaycanda bu sahədə görülən işləri yüksək qiymətləndirir: "Bu il Azərbaycanda olmaq imkanı əldə etdim və orada innovativ mühit və ilk növbədə gənclərin innovasiya sahəsində fəallığını gördüm. Bu sahələrin ölkə rəhbərliyi tərəfindən dəstəkləndiyinə şahid oldum".

Baş direktor, həmçinin Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunmuş bu tədbirdə nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin rəhbərliyi ilə nümayəndə heyəti ilə təmsil olunmasını məmnunluqla qeyd edib və görüşdə Azərbaycanın təbii resurslara söykənən iqtisadiyyatdan əlavə dəyər yaradan və innovativ yeniliklərə yönəlmiş iqtisadiyyat yolunu tutmasından bəhs olunduğunu qeyd edib. O, bu tədbirin əhəmiyyətini vurğulayaraq, sərgi və konfransın Azərbaycanda innovasiya mühitinin necə fəaliyyət göstərdiyi nümayiş etdirdiyini bildirib.

# Görünən kəndə bələdçi lazım deyil

*Senatorların da, merin də, Konqres üzvlərinin də məktubu Ermənistandakı qanunsuzluqlara demokratiya donu geyindirə bilməz*



Ermənistana məxsus kütləvi informasiya vasitələri ABŞ Konqresinin bir neçə üzvünün baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyana ünvanladığı məktubunu 9 dekabr tarixində keçirilən seçkilərin müstəqil və ədalətli keçirilməsi münasibətilə göndərilməsi donu geyindirməyə xüsusi canfəşanlıqla çalışır. İşğalçı dövlətin mətbuat orqanlarının niyyəti tam şəkildə aydındır və məqsəd, rəqiblərə təzyiqlərin edilməsindən tutmuş, saysız-hesabsız seçki pozuntularına qədər Paşinyanın bütün qanunsuz əməllərini ört-basdır etmək, əvəzində, dövlət çevrilişini demokratiyanın qələbəsi kimi sırımaqdır.

İşğalçı dövlətə məxsus "tert.am" saytında Edvard Markin, Cek Rid, Şeldon Uaytxaus kimi ermənipərəst senatorlar, eləcə də, ABŞ Konqresinin erməni məsələləri üzrə həmsədrləri Frenk Pallone, Deyv Trot, Devid Valadao, Ceki Stip, həmçinin, Qus Bilirakis və Adam Şiff tərəfindən ölkə konstitusiyasının təhrif olunduğu qeyd olunur. Hətta bu ermənipərəstlərin Ermənistanda idarəetmə formasının sülh və demokratik şəkildə əhəmiyyətli dərəcədə dəyişdirildiyini iddia etmələrini də yazmaqdan çəkinmir "tert.am".

### Ermənistanda nə baş verdiyini senatordan, merdən eşitməklə, heç kimdə "erməni demokratiyası" kimi fikir formalaşdırmaq mümkün deyil

Məsələ burasındadır ki, sözügedən erməni saytının özündə də bu şəxslərin erməni məsələləri üzrə həmsədr, sədr və yaxud hər kimsə, olduğu, bir sözlə, ermənipərəst olması etiraf olunur. Bu halda, həmin şəxslərin fikirlərinin kimin üçün mahiyyət kəsb etdiyi bəlli olur və ermənilərdən başqa, heç kim bu adamların fikirlərini hesaba almayacaq. Konqres üzvü olmur, kim olur-olsun, həmin şəxslərin mövqeyi, artıq kiminsə əhəmiyyətli ola bilməz və Ermənistanda nə baş verdiyini senatordan, merdən eşitməklə, heç kimdə "erməni demokratiyası" kimi fikir formalaşdırmaq mümkün deyil. Çünki Ermənistanda nələr baş verdiyi, Paşinyanın hakimiyyət uğrunda hansı oyunlardan çıxdığı sirr də deyil və hamı artıq bunu bilir.

Digər tərəfdən, küçə nümayişçisi gəlişi ərəfəsindən bu günə qədər yalnız inqilablar, idarəedilməz kütlənin küçədə törətdikləri dağıntılar, rəqiblərə təzyiq və təhdidlərlə yadda qalıb və indi bu avantüristin erməni cəmiyyətinə sülh gətirdiyini bu ermənipərəstlərdən başqa kim söyləyə bilər? Yaxud onların dediklərinə kiminsə inanacağına işğalçı dövlətə məxsus media əmindirmi ki, təbrik məktubu adı altında bu qədər şişirdilmiş şəkildə təşviqata xüsusi yer ayırır?

### Ermənistana məxsus kütləvi informasiya vasitələri dərk etməlidirlər ki, təşviqat xarakterli belə yalanlarla yalnız özlərini aldada bilərlər

Yaxud erməni KİV-ləri bu nümayişçinin dövlət çevrilişinəmi görə, yoxsa seçkilərin saxtalaşdırılmasınamı görə onu "demokrat" kimi qələmə verməyə çalışır? Bəlkə, demokratik yolla hakimiyyətin qurulmasından dəm vuran bu erməni mətbuatı öz yalanlarını indi də senatorların köməyi ilə "göyərtməyə" çalışırlar? Qeyd etdiyimiz kimi, istər senator olsun, istər də mer, bu yalanı kim söyləyir- söyləsin, buna inanan da yoxdur və görünən kəndə bələdçi də lazım deyil. Senatorların da, merin də, Konqres üzvlərinin də məktubu Ermənistandakı hakimiyyət uğrunda mübarizəyə demokratiya donu geyindirə bilməz.

İstər erməni cəmiyyəti, istər erməni lobbisi, istərsə də Ermənistanın regional təhlükəsizlik və iqtisadi cəhətdən çiçəklənəcəyinə, guya ümid bəsləyən bütün ermənipərəst konqresmenlər bilməlidirlər ki, belə mənasız və əsassız fikirlərlə ictimaiyyəti nə aldatmaq mümkün olmayacaq, nə də səfalət içərisində olan Ermənistanı ayağa qaldırmaq, dirçəltmək. Ermənistana məxsus kütləvi informasiya vasitələri isə kimlərisə aldatdıqlarını zənn edirlərsə, bərk yanılırlar və dərk etməlidirlər ki, təşviqat xarakterli belə yalanlarla yalnız özlərini aldada bilərlər.

**İnam HACIYEV**

# Şərəfsizliyin və əxlaqsızlığın Rafael Piriyev nümunəsi

## *İki qancığın toqquşmasından əmələ gələnlər Avropada oturub millətin heysiyyətinə toxunan videolar paylaşırlar*



***Əxlaqı korlanmış "sosial media qəhrəmanları" Avropada oturub, Azərbaycan əleyhinə təbliğat aparmaqda davam edirlər. Vidadi İsgəndərli, Orduxan Teymurxan, Həbib Müntəzir, Arzu Qeybulla, Məhəmməd Mirzəli, Qənimət Zahid, Tural Sadıqlı, Arif Məmmədov, Fikrət Hüseynov, Ataxan Əbilov, Arif və Leyla Yunuslar, Xədicə İsmayıl kimi xainlər beynəlxalq təşkilatların ayırdıqları qəpik-quruşa satılaraq, Azərbaycan əleyhinə təxribatların əsas iştirakçılarına çevriliblər. Ölkəmizlə bağlı böhtan xarakterli çıxışlar edən bu simasızlar, bununla şərəfsiz və əxlaqsız ünsürlər olduqlarını nümayiş etdirirlər.***

Son vaxtlar yuyulmamış çömçə kimi ortaya çıxan Rafael Piriyev adlı bir gədə Azərbaycan mətbuatına öz intellektləri və peşəkarlıqları ilə seçilən jurnalistlərə şər-böhtan atmaqdan çəkinmir. Bəzən dünbələk boyu ilə hündürlüyə tullanan Rafael dövlət adamlarına qarşı üfunət iyi verən ağzından zibil də atır. Qarışıq və ziddiyyətli fikirləri ilə öz sözünü deyil, Vidadi İsgəndərli, Orduxan Teymurxan, Məhəmməd Mirzəli və bu kimi digər yaramaz məxluqların qidalandıqları və təlimat aldıqları mərkəzlərdən göstəriş aldığını nümayiş etdirir. Hətta erməni təəssübkeşliyindən çıxış etməsi satqınlığı irsi xəstəlik kimi genində daşıyan R.Piriyevin milli mənsubiyyətində qaranlıq məqamların olduğunu da təsdiqləyir.

Şübhə yoxdur ki, tör-töküntüdən ibarət olan piriyevlərin şərböhtanlarını genişləndirmələrinin bir səbəbi də Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun dekabrın 17-də verdiyi açıqlama olub. Məhz bundan sonra onun ittiham etdiyi şəxslər və digər xaricdə məskunlaşmış şəbəkə üzvləri, xüsusilə Azər Kazımzadə, Əli Oğuz və R.Piriyev "Facebook"da açıq kampaniyaya başlayıblar və ən sərt formada Prezidentin köməkçisini ittiham edirlər.

Xatırladaq ki, bir müddət əvvəl, hazırda Gürcüstanda yaşayan jurnalist Azər Kazımzadə Vidadi İsgəndərlinin atasının qəbrinin təhqir edilməsinin arxasında Əli Həsənovun durduğunu iddia etmişdi. Məsələyə münasibət bildirən Prezidentin köməkçisi isə, bunun yalan olduğunu deməklə yanaşı, hazırda xaricdə yaşayan bir sıra şəxslərin xarici anti-Azərbaycan qüvvələrin təsiri altında olduğunu və Azərbaycana qarşı düşmənçilik etdiklərini demişdi.

İlk baxışdan, onların yazdıqları Əli Həsənovun fikirlərinə reaksiya kimi görünsə də, əldə etdiyimiz məlumat məsələnin arxasında daha ciddi məqamların durduğunu deməyə əsas yaradır. Həqiqiliyi şübhə doğurmayan məlumata əsasən, bir müddət əvvəl, hazırda Almaniyada məskunlaşmağa çalışan Əli Oğuz və R.Piriyev yerli hakimiyyət orqanlarından imtina cavabı alıblar və onları digər ölkəyə, həmçinin geriyə - Azərbaycana deportasiya təhlükəsi gözləyir. Hazırda Gürcüstanda yaşayan Azər Kazımzadə isə, Avropaya köçmək üçün ciddi cəhdlər göstərsə də, buna nail ola bilmir. Yeganə çıxış yolu isə Azərbaycana qayıdacaqları təqdirdə, onları ciddi problemlər gözləyəcəyi görüntüsü yaratmaq və Almaniyanın miqrasiya orqanlarını buna inandırmaqdır. Elə bu məqamda müxalifətin Göyçaydakı fəallarından birinin Əli Həsənovun Vidadi İsgəndərlinin atasının qəbrinin təhqir edilməsində guya hansısa rol aldığı barədə Azər Kazımzadəyə ötürdüyü məlumat onlar üçün "əlverişli" şans yaradıb. Bu şəxslər Əli Həsənova qarşı müxtəlif ittihamlar irəli sürərək, cavab reaksiyasına nail olduqlar və növbəti mərhələdə ona qarşı sərt çıxışlar edərək, özləri üçün ciddi təhlükə görüntüsü yaratmağa çalışırlar. Sonra isə, belə iddialar ortaya atılacaq ki, guya Əli Həsənov onların Azərbaycandakı qohumlarına qarşı zorakılıq təşkil edib, qohumları incidilib və yaxud da guya öldürüləcəkləri ilə bağlı təhdid edilirlər. Bu məqsədlə "Facebook"un imkanlarından istifadə olunacaq və feyk profillərdən öz ünvanlarına hədə-qorxular təşkil olunacaq. Sonra isə həmin materiallar toplanacaq və Almaniyanın miqrasiya orqanlarına təqdim ediləcək. Elə buna görə də, Əli Həsənovun açıqlamasına münasibət bildirən R.Piriyev "Facebook"da yazır ki, "mənim adımı niyə salmamısan siyahıya, ay Əli Həsənov". Görünür, Əli Həsənovun onun adını çəkməməsi Piriyevin oturum almaq ümidlərini bir az qəlizləşdirib. Bu baxımdan, onun deportasiya olunacağı qaçılmazdır. Vəziyyətdən çıxmaq üçün R.Piriyev növbəti günlərdə öz cılız və şərəfsiz fəaliyyətlərini daha geniş şəkildə quracağı, erməni lobbisinin mənafelərinə xidmət edən videolar paylaşacağı, şər-böhtanlar yayacağı şübhəsizdir. Ancaq nə edirsə-etsin gözlənilən odur ki, R.Piriyev kimi ünsürlər bu dəfə də iflasa uğrayacaq və tarixin zibilliyinə gömüləcəklər.

***İ.ƏLİYEV***

# "Siyasi mühacir"lərin milli genləri dəyişdirilib

## *Alçaq hərəkətlər yolu ilə pul qazanıb yaşamaqdansa, ölüb o dünyaya köçsən, daha yaxşıdır*

***Xaricdə siyasi mühacir adı ilə sosial şəbəkələrdə çıxış edən Vidadi İsgəndərli, Orduxan Teymurxan, eləcə də, onlara Azərbaycanda dəstək verib, yardım göstərən, Aslan İsmayılov kimilər ölkəmiz və dövlətimiz əleyhinə şər-böhtan və təhqiramiz ifadələr, fikirlər səsləndirib yayırlar. Sual yaranır, onların bu dövlətə və xalqa düşmən kəsilmələrinin səbəbi nə ilə izah oluna bilər? Söhbət etdiyimiz müsahiblərimiz bunun səbəbini onların müəyyən ermənipərəst qüvvələrin təsiri altında olmaları ilə əlaqələndirdilər.***

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Siyasi mühacir"ləri ölkəmizə qarşı hürdürən qüvvələr var"



- Onların bu cür yersiz hərəkətlərə əl atmalarının çox sadə səbəbləri var. Birincisi, onlar özbaşına deyillər. "Siyasi mühacir"ləri ölkəmizə qarşı hürdürən qüvvələr var. Qarşılığında maraqları təmin olunur. Yəni onlar Azərbaycana qarşı şər-böhtan atmaqla, xarici donor təşkilatlarından və Azərbaycanda siyasi sabitliyin pozulmasında maraqlı olan qüvvələrdən maliyyə dəstəyi alırlar. Yəni bunların marağı bu səviyyədədir ki, o sifariş verənlərin sifarişini yerinə yetirsinlər, Azərbaycanda ictimai rəyi çaşdırsınlar, sabitliyin pozulmasına nail olsunlar və bunun qarşılığında o sifariş verənlərdən külli miqdarda maliyyə vəsaiti alsınlar. Bu, açıq-aşkardır, yəni bütün bu gedən proseslər bunu göstərir və onların həm təbliğatı, həm ara dövrdə bir-birlərinə qarşı apardıqları mübarizə göstərdi ki, onların maraqları, əslində, vətəni satmaqla və bu cür çirkin işlər görməklə, sadəcə, pul qazanmaqdır. Amma vurğuladığım kimi, bunlar özbaşına deyil, təbii ki, onları o yola sövq edənlər, istiqamətləndirənlər və bu işə maraqlandıranlar var. O maraqlandıranlar kimlərdir? Təbii ki, onlar böyük güclərdilər, Azərbaycanın inkişafını, müstəqil siyasət yürütməsini istəməyən qüvvələrdirlər və "sapı özümüzdən olan baltalar" vasitəsi ilə, sadəcə, Azərbaycandakı kimi, bu sabitliyi, ictimai rəyi pozmaq istəyirlər. Amma buna nail olmayacaqlar. Çünki Azərbaycan dövləti də, hakimiyyəti də, xalqı da kifayət qədər ayıqdır və kimin kim olduğunu yaxşı görür və bilir.

### "Təkamül" partiyasının sədri Teyyub Qənioğlu: "Siyasi mühcir"ləri maliyyələşdirənlər elə onların taylarıdır"



- Siyasi proseslərdə heç vaxt təhqirə yol verməl olmaz. Hər hansı bir şəxsin fəaliyyətindən narazısansa, onun özünün fəaliyyətini arqumentlərlə tənqid elə. Yəni bu məsələlərə ailə məsələlərini qatmaq və təhqir etmək olmaz. Avropadakı "siyasi mühacir"lərin bu cür yersiz hərəkətlərini qətiyyətlə pisləyirəm. Hesab edirəm ki, qarayaxmalara yol verənlərin özləri bu haqda bir düşünsünlər. Yəni hesab etsinlər ki, onların yerində özləridir və bu cür qarayaxmalar, böhtanlar, təhqirlər, ailə üzvlərinə bu cür münasibət olsa, necə olar? Digər tərəfdən də, mübarizənin başqa yolunu tapmırlar. Amma heç vaxt onlar öz istəklərinə nail olmayacaqlar. Təbii ki, xaricdə oturub öz ölkəsi və dövləti haqqında bu cür xoşagəlməz ifadələr səsləndirənlər, cəzasız qala bilməzlər. Bununla bağlı hüquq-mühafizə orqanları tədbirlər görməlidirlər. Digər tərəfdən də, bunlar xaricdə nə ilə məşğuldurlar? Hansı maliyyə hesabına özlərinin fəaliyyətlərini davam etdirirlər? El arasında belə bir misal var: deyir, pulu kim verirsə, musiqini də o sifariş etdirir. Yəni "siyasi mühacir"ləri maliyyələşdirənlər, elə onların taylarıdır ki, onları maliyyələşdirib və bu cür ifadələri işlətməyə təhrik edirlər. Əgər adları çəkilən şəxslər bu cür ifadələr işlətməsələr, maliyyələri kəsiləcəkdir. Bir sözlə, şər-böhtan yolu ilə, bu cür alçaq hərəkətlər yolu ilə pul qazanıb yaşamaqdansa, ölüb o dünyaya köçsən, daha yaxşıdır.

***GÜLYANƏ***

# "Azərbaycan dövləti son 10 ildə çox böyük yol keçib"



"Sosial təbəqəyə dövlətin dəstəyini ən müxtəlif formalarda və istiqamətlərdə ifadə etməkdə həqiqətən Azərbaycan dövləti xüsusilə də son 10 ildə çox böyük yol keçib. Ortada çox zəngin təcrübə və böyük nəticələr var". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

"Hətta deyərdim ki, dünyanın heç bir ölkəsində əhalinin həssas, sosial təbəqələrinə Azərbaycandakı qədər (birdəfəlik yardımlardan, müavinətlərdən tutmuş mənzillərin verilməsinə qədər rəngarəng, çoxistiqamətli, çoxşaxəli yardımlar) dəstəklər göstərilmir. Bildiyiniz kimi sosial təbəqə ümumiyyətlə dünyanın bütün ölkələrində ən həssas təbəqə sayılır. Amma mən inanmıram ki, Azərbaycandakı qədər hər hansı bir ölkədə onun bu qədər çox sayda differansiallaşdırılması aparılsın. Ola bilər ki, bir sıra başqa ölkələrdə məsələn, sosial qayğıya, sosial dəstəyə ehtiyacı olan təbəqələr 5-10 kateqoriya ilə ölçülsün. Amma Azərbaycanda bu kateqoriyaların sayı daha çoxdur. Hətta mən bildiyim qədər 40-a yaxın belə kateqoriyalar var ki, dövlət tərəfindən bu və ya digər səviyyələrdə, formalarda dəstək alırlar. Bu dövlətin həm sosial təbəqələrə maddi-mənəvi dəstək görməkdə böyük imkanlara malik olmağının göstəricisidir, həm də dövlətin bu istiqamətdə əhali ilə sona qədər işləmək iradəsinə, humanist hisslərə malik olmasının nümayişidir.

Dünyanın heç bir ölkəsində Azərbaycan qədər sosial təbəqələrə, sosial dəstəyə ehtiyacı olan insanlara mənzillər verilmir. Bu Azərbaycanda çoxsistemli xarakter daşıyır. Ümumən Azərbaycan dövlətinin sosial qayğıya ehtiyacı olan təbəqəyə dəstəyi öz məzmununa və istiqamətlərinə görə çox maraqlıdır"-deyə, baş redaktor fikrini tamamlayıb.

# "Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusunda respublika elmi konfransı keçirilib

***Dünən AMEA-nın Humanitar və İctimai Elmlər Bölmələrinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusunda respublika elmi konfransı keçirilib.***



Ədəbiyyat İnstitutunun Elektron Akt zalında baş tutan tədbiri AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli açaraq, Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi"nin keçirilməsi və 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncamlar imzaladığını xatırladıb. Bildirib ki, bu sənədlərin icrasından irəli gələn məsələlərin həlli ilə bağlı AMEA Rəyasət Heyətinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq, cari ildə humanitar və ictimai elmlər bölmələrinin elmi müəssisələrində bir sıra respublika və beynəlxalq səviyyəli tədbirlər keçirilib, məqalələr, kitablar, sənədlər toplusu, elmi-biblioqrafik göstəricilər, monoqrafiyalar nəşr olunub və sərgilər təşkil edilib.

Cümhuriyyət dövründə Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin və ədəbiyyatının özünəməxsus inkişaf yolu keçdiyini söyləyən akademik bu gün AXC irsinin tədqiqi istiqamətində mühüm addımların atıldığını deyib.

Tədbirdə çıxış edən İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova AXC-nin milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğunu bildirib. Qeyd edib ki, iki ildən az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, AXC çətin tarixi vəzifəni şərəflə yerinə yetirib, bu dövrdə Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edilib, ölkənin sərhədləri müəyyənləşdirilib, bayrağı, himni və gerbi yaradılıb, ana dili dövlət dili elan edilib.

Konfransda, həmçinin, Azərbaycan Dillər Universitetinin kafedra müdiri, filologiya üzrə elmlər doktoru, AMEA-nın professoru Aynur Sabitova "Cümhuriyyət dövrü Azərbaycan ədəbiyyatında milli dövlətçilik və istiqlal ideyaları", Hüquq və İnsan Haqları İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elşad Mirbəşiroğlu "Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq əlaqələri", Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya üzrə elmlər doktoru, professor Alxan Bayramoğlu "Azərbaycan Cümhuriyyəti dövründə ədəbi hərəkat", Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Kamran İsmayılov "Azərbaycan milli məfkuresinin inkişafında AXC-nin yeri və rolu" və başqaları məruzələrlə çıxış ediblər.

***ZÜMRÜD***

# Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyəti daha da təkmilləşdiriləcək

*Dövlət başçısının Sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib*




Azərbaycan demokratik dəyərlərin bərqərar olduğu müasir hüquqi bir dövlətdir. Dövlət başçısı tərəfindən məqsədli və planlı şəkildə həyata keçirilən demokratikləşmə prosesi sosial, hüquqi, siyasi və iqtisadi olmaqla cəmiyyət həyatının bütün sferalarını əhatə edir. Müstəqil ölkəmizdə insan hüquqlarının müdafiəsinə dair dövlət proqramları və digər sənədlər qəbul edilib. Həmin sənədlərdə Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər əks olunub. Vətəndaşların hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunması, qanunun aliliyinin tam təmin edilməsi istiqamətində işlər davam etdirilir.

Görülən işlərin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 132 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" ölkəmizdə məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi, hüquq sisteminin müasirləşdirilməsi, ədliyyə orqanlarının və məhkəmələrin işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsi, regionlarda hüquq infrastrukturunun genişləndirilməsi, yeni nəsil hüquqşünasların və ədliyyə orqanları işçilərinin formalaşdırılması üzrə həyata keçirilən siyasətin davamı olmuş və bu sahədə nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ədliyyə sahəsində islahatların davamlılığının təmin olunmasını şərtləndirir. Bu məqsədlərə xidmət edən "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" həyata keçirilməli olan zəruri tədbirləri müəyyən edir.

Dövlət Proqramının məqsədi ədliyyə sahəsində həyata keçirilən islahatların davam etdirilməsini, ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin daha da təkmilləşdirilməsini təmin etməkdən ibarətdir.

Dövlət Proqramında Azərbaycan ədliyyəsinin 2019-2023-cü illərdə ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi, ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində insan hüquq və azadlıqlarının, şəffaflıq prinsiplərinin təmin olunması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın gücləndirilməsi və digər bu kimi əsas istiqamətlərdə inkişaf etdirilməsi nəzərdə tutulur.

Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planına əsasən, "Elektron hökumət" keçidin təmin edilməsi məqsədilə məhkəmə və ədliyyə orqanlarında İKT-nin tətbiqinə dair uzunmüddətli strategiyanın hazırlanması, əhalinin məlumat əldə etmək imkanlarının asanlaşdırılması məqsədilə Ədliyyə Nazirliyinin internet saytlarının təkmilləşdirilməsi üçün tədbirlər görülməsi, fiziki və hüquqi şəxslərə vahid mənbədən informasiya əldə etmək və elektron xidmətlərdən yararlanmaq imkanı verən "Vahid ədliyyə portalı"nın təşkil edilməsi və s. nəzərdə tutulub.

Göründüyü kimi, bütün bunlar qanunun aliliyi, insan hüquq və azadlıqlarının etibarlı təmin olunması, hüquq institutlarının möhkəmləndirilməsi, əhaliyə yüksək keyfiyyətli hüquqi xidmətlər göstərilməsi, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və ədalət mühakiməsinin səmərəliliyinin artırılması Azərbaycan dövlətinin hüquq siyasətinin prioritetlərindəndir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sumqayıtda yol qəzası törədərək qaçan sürücü saxlanılıb



Sumqayıtda piyadanın xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsi törədərək qəza yerindən yayınan sürücü polis əməkdaşları tərəfindən saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 17-də saat 20 radələrində Sumqayıt şəhərinin Metallurq küçəsində yolu keçən şəhər sakini Rüstəm Babaşov müəyyən edilməmiş avtomobillə vurulub. Piyada aldığı xəsarətlərlə əlaqədar xəstəxanaya yerləşdirilib. Bu barədə daxil olmuş məlumatla əlaqədar dərhal 4-cü polis bölməsinin əməkdaşları tərəfindən müvafiq araşdırmalar aparılıb. Yol-nəqliyyat hadisəsinin "Hyundai" markalı avtomobillə törədildiyi müəyyən edilib.

Əməliyyat-axtarış tədbirləri ilə hadisə yerindən yayınmağa şübhəli bilinən həmin nəqliyyat vasitəsini idarə edən Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş Vasif Quliyev polis əməkdaşları tərəfindən saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Metroda cibgirlik edən şəxslər polis tərəfindən saxlanılıb

Bakı Şəhər Baş Polis İdarəsinin Metropolitendə Polis Şöbəsinin əməkdaşları metronun stansiyalarında və qatarlarda cinayətkarlığa qarşı mübarizə tədbirlərini qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 18-də saat 9 radələrində Metropolitendə Polis Şöbəsinə müraciət edən paytaxt sakini "28 May" stansiyasının platformasında cibindən "Iphone 5S" markalı mobil telefonunun oğurlandığını bildirib. Müraciətlə əlaqədar dərhal müvafiq tədbirlərə başlanılıb. Oğurluğu törətməkdə şübhəli bilinən şəxs keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyənləşdirilib. O, "20 Yanvar" stansiyasında polis əməkdaşları tərəfindən saxlanılıb.

Araşdırmalarla onun Zəngilan rayon sakini, oğurluq və soyğunçuluq cinayətlərinə görə əvvəllər də məhkum edilmiş Xəqani Cavadov olduğu müəyyənləşdirilib. Bundan başqa, Abşeron rayonunun qadın sakininin "Samsung" markalı mobil telefonunun metronun "Nizami" stansiyasında oğurlanması barədə polisə müraciət daxil olub. Müraciətlə əlaqədar keçirilmiş əməliyyat tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Sumqayıt şəhər sakini Rafiq Allahverdiyev polis əməkdaşları tərəfindən metronun "28 May" stansiyasının yaxınlığında saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.

# Vergi islahatları qeyri-dövlət sektorunda çalışan 450 min nəfərin əmək gəlirlərinin artırılmasına xidmət edəcək

Vergilər Məcəlləsində edilən dəyişikliklər və bu sahədə aparılan islahatların ana xəttini vergi yükünü azaltmaq yolu ilə vergitutma bazasını genişləndirmək təşkil edir. Bu islahatlar qeyri-dövlət sektorunda çalışan təxminən 450 min nəfərin əmək gəlirlərinin artırılmasına xidmət edəcək. Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, bu barədə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov bildirib.

Liqa sədri islahatlar nəticəsində qeyri-rəsmi məşğulluğun səviyyəsinin azalacağını, sahibkarların əmək münasibətlərini rəsmiləşdirməsinə iqtisadi marağın artacağını, nəticə etibarilə isə iqtisadiyyatda ciddi artımların qeydə alınacağını vurğulayıb: "Səmərəli biznes mühiti iş adamlarına fəaliyyət meydanını genişləndirmək və daha çox qazanmaq; dövlətə isə kölgə iqtisadiyyatının qarşısını almaq və vergitutma bazasını genişləndirməklə öz xəzinəsinə daha çox vəsait toplamaq imkanı yaradacaq. Belə düşünürəm ki, bu sahədə azalmalar olmayacaq. Aparılmış təhlillər və hesablamalarla vahid gəlir vergisinin tətbiqi nəticəsində fiziki şəxslərin muzdlu işdən və muzdlu işə aid olmayan fəaliyyətindən əldə olunan gəlirlər üzrə 2019-cu ildə cəmi 3 milyard 376 milyon manat, o cümlədən fiziki şəxslərin sosial təminatı məqsədilə onlardan tutulacaq sabit gəlir vergisi üzrə isə 60 milyon manat vergi daxilolmaları ehtimal olunur".

# Dərə dibindəki müxalifətin “zirvə” görüşü

## Yaxud İskəndər Həmidovun məqsədi nədir?

***Artıq nə cəmiyyət, nə də işlədikləri müəyyən qaranlıq siyasi dairələr qarşısında heç bir etimadı qalmayan dağıdıcı müxalifətin siyasi səhnədə son cəhdlərini göstərməsi kimsəyə sirr deyil. İstər Avropadakı saxta “siyasi mühacirlər” vasitəsi ilə, istərsə də digər vasitələrlə ictimai rəyin diqqətini üzərlərində cəmləşdirmək missiyasını “REAL”laşdıra bilməyən düşərgə bu dəfə başqa “xilas” yolu axtarmağa başlayıb. Lakin bu yolda da sapıntıların mövcudluğu göz önündədir.***

### İskəndər Həmidov “müxalifəti bir araya gətirməyi bacaran lider” statusuna malik olmaq ambisiyasındadır

Məsələ ondadır ki, dağıdıcı müxalifətin “yeni birlik formatı” ətrafında bir araya gəlməsi üçün ən çox səy göstərən AMDP sədri İskəndər Həmidovdur. Görünür, o düşərgədaxili ziddiyyətlərdən, eyni zamanda, boşluqlardan maksimum dərəcədə istifadə edərək, “liderlik” məqamını ələ keçirmək planını həyata keçirmək məqsədini ortaya qoyub. Bu baxımdan, düşərgədəki siyasi partiya ofislərini qapı-qapı gəzərək, “müxalifətin zirvə toplantısı” adlı tədbir keçirməyi planlaşdırır. Bu məsələdə ona “Xural”ın baş redaktoru Əvəz Zeynallının dəstək göstərməsi ilə olduqca maraqdoğurucu məsələlərdən xəbər verməkdədir.

İlk ehtimal isə budur ki, İ.Həmidovun xəstəxanadan çıxar-çıxmaz bu məsələyə girişməsi, onun öz vəziyyətindən sui-istifadə edərək, mövqeyini gücləndirməsi marağıdır. Daha dəqiq desək, İ.Həmidov “müxalifəti bir araya gətirməyi bacaran lider” statusuna malik olmaq ambisiyasındadır. Lakin gəlin görək, onun “zirvə toplantısına” dəstəklər varmı və varsa, bu dəstəklər hansı siyasi təşkilatlar tərəfindən verilib?



### İlk rədd cavabları AXCP, Müsavat və “REAL”-dan gəldi!

Mediaya sızan məlumata görə, “zirvəyə” 40-a yaxın müxalifət partiyası dəvət olunsa da, onlardan ən səslikülyüləri - Əli Kərimlinin sədri olduğu AXCP-nin, Müsavatın başqanı Arif Hacılının, eləcə də, “REAL” partiyasının sədri İlqar Məmmədovun bu təşəbbüsə “yox” dedikləri üzə çıxıb. Yeni bu partiyalar sözügedən tədbirə qatılmayacaqlarını bu və ya digər şəkillərdə bildirməkdədirlər. Əgər bu partiyaların ayrı-ayrılıqda İ.Həmidov-Ə.Zeynallı cütlüyünün təşəbbüslərini rədd etdikləri ətrafında mülahizələrimizi irəli sürsək, belə bir nəticəyə gələ bilərik: həm Müsavat, həm AXCP, həm də “REAL” bunu başqasının kölgəsi altında fəaliyyət kimi qiymətləndirirlər. Misal üçün, xatırlaya bilərik ki, hələ “Milli Şura” yaradılarkən, AXCP sədri Ə.Kərimli bu quruma üzv olmayan siyasi partiyaları həqiqi müxalifət kimi tanınmayacağını bəyan etmişdi. Eləcə də, Müsavatın başqanı A.Hacılı partiyasının daha səmərəli format təsis etmək planı ətrafında fikirlər səsləndirmişdi. “REAL” tərəfi isə, ümumiyyətlə, ənənəvi müxalifətçilik tendensiyasını rədd edərək, daha “proqressiv” müxalifətçilik üzərində fəaliyyət göstərməyin məqbul hesab edildiyini bildirərək, bütövlükdə, düşərgədəki bütün format və birliklərdən imtina edib.

### “REAL”-dan daha konkret cavab: “Dəvət gəlsə də, belə bir şəraitdə iştirak etməmək ehtimallarımız daha çoxdur”

Əgər nəzərə alsaq ki, “zirvə” tədbirinə ən yaxşı halda KXCP, “Ümid”, “Ədalət”, VHP, AXP və s. bir neçə siyasi partiyalar qatılmaq razılığı verəcəklərsə, bunun siyasi gündəmə heç bir təsiri olmayacaq. Hətta AXCP, Müsavat və “REAL” partiyaları da bu təşəbbüsə “hə” desəydilər, yenə də düşərgədəki ağır durum normallaşdırıla bilinməyəcəkdi. Çünki buna əsas səbəb var - cəmiyyət bu kimi köhnə və nimdaş, təfəkkürü dəyişməmiş, siyasi ambisiyalarının qurbanlarına çevrilmiş ənənəvi müxalifəti, birmənalı olaraq, qəbul etmir. Cəmiyyətə isə zorən nəyisə qəbul etdirmək qeyri-mümkündür.

Yeri gəlmişkən, İ.Həmidovun təşkil etməyə çalışdığı “zirvə” ilə bağlı “REAL”-ın icraçı katibi Natiq Cəfərli maraqlı fikir bildirib. O, Azərbaycan müxalifətində son 20 ildə 11 birlik modelinin olduğunu xatırladaraq deyib ki, onlar heç bir səmərəli nəticə əldə edə bilməyiblər. “Bunların heç biri, yüngül desək, uğurlu modellər olmayıb” deyən N.Cəfərli hesab edir ki, belə modellərin öncədən bəlli bir məqsədi, gündəliyi olmalıdır: “Açığı, bizim üçün hələ də bu “zirvə” görüşünün məqsədi, məramı, proqramı və atılacaq addımların ardıcıllığı məlum deyil. Ona görə iştirakla bağlı qərar verməmişik. Dəvət gəlsə də, belə bir şəraitdə iştirak etməmək ehtimallarımız daha çoxdur”.

### İskəndər Həmidov düşərgədəki “liderlik” mövqeyini ələ keçirmək planlarını bəri başdan iflasa uğramış kimi hesab edə bilər

Göründüyü kimi, burada görünən həqiqətlərdən biri elə yuxarıda qeyd edilən faktlardır. O cümlədən, şəxsi ambisiyaların mövcudluğu da burada əsas rol oynayır. Daha doğrusu, “REAL”, partiya olaraq, İ.Həmidovun AMDP-sinin kölgəsinə heç vaxt çəkilməz. Yaxud AXCP “Milli Şura”nı İ.Həmidovun təklif edəcəyi formatın ayağı altına atmaz. Həmçinin, Müsavat da bənzər məqsədlərə malik olduğu üçün, AMDP-nin əlaltısına çevrilmək istəməz.

Beləliklə, İ.Həmidov düşərgədəki “lidelik” mövqeyini ələ keçirmək planlarını bəri başdan iflasa uğramış kimi hesab edə bilər. Onun yaradacağı “formatı” isə, ən yaxşı halda, kağız üzərində qoyulacaq imzalardan başqa bir şeyə yaramayacaq. Çünki bu, sadəcə, dərə dibinə düşmüş və uzun illərdir bir qarış olsa belə, yuxarı çıxa bilməyən bir düşərgənin növbəti xəyallarıdır.

**Rövşən NURƏDDİNOĞLU**



## Tanış olun, şərəfsizlər kralı -Vidadi İsgəndərli!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

**Bəlkə də Azərbaycanın tarixində, hətta dünyada Vidadi İsgəndərli qədər şərəfsiz məxluq olmayıb və olmayacaq da. Ola bilər ki, adi şərəfsizlər olsunlar, ancaq onun kimiləri çox nadir cinsli şərəfsizlərdəndirlər. Hətta Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Emin Milli, Aslan İsmayılov kimi adi şərəfsizlər belə, onun kimi qatı şərəfsizliyə nail ola bilməzlər. Ən azından, ona görə ki, adları sadalananlar V.İsgəndərli kimi qız uşağını zorlamayıblar, yaxud hüquq-mühafizə orqanlarında işləyərkən, həbs olunmuş şəxslərə qarşı xüsusi qəddarlıq nümayiş etdirməyiblər və s. Daha bir fakt budur ki, satqının, necə deyərlər, nə məkanı nə də milləti olmaz. Satqın, xəyanətkar hər yerdə şərəfsizlik damğasını həm murdar alnında, həm də arxa gündəyməzində daşıyır.**

Yeri gəlmişkən, günaşırı olaraq, V.İsgəndərli haqqında yeni-yeni faktlar ortaya çıxır və bu faktların heç birində normal insan davranışlarına aid heç bir müsbət məqam tapmaq mümkün deyil. İndiki halda belə bir sual düşündürməyə vadar edir: əcəba, necə olub ki, V.İsgəndərli belə bir şəxsiyyətsizliyi və simasızlığı ilə prokurorluq orqanlarında çalışıb? Nə yaxşı ki, onun şəxsiyyətsizliyi zamanında aşkarlanaraq, üzə çıxarılıb və orqanlardan uzaqlaşdırılıb. Yoxsa ki, onun bu ölkə adına daha böyük fəsadlar vura biləcəyini də istisna etmək olmazdı.

İndi həmin bu şərəfsizlər kralı oturub Fransada və həftə səkkiz, mən doqquz “youtube” kanalına çıxıb, ac, quduz köpəklər kimi, Azərbaycan dövlətinin və hakimiyyətinin əleyhinə hürür, “hav”layır. Hətta hürmə və “hav”lamalara o dərəcədə qapılır ki, o murdar ağzından quduzluq heliyinin necə axdığının fərqinə belə varmır.

İndi, zaman da başqadır və beynəlxalq hüquq bir çox məsələləri həll etmək gücündədir. Çox yəqin ki, bu gün Fransada və Avropanın digər ölkələrində hürən şərəfsizlər bir gün, əlbəttə ki, bu cinayətlərinin bədəlini ödəməli olacaqlar. Xüsusilə, V.İsgəndərli hava limanında təyyarə trapından düşürülərək, qolu qandallı şəkildə müvafiq avtomobilə mindirilərkən, onu tanımayanlar sual edə bilərlər ki, bu kimdir və hansı cinayətinə görə ekstradisiya edilib? Şəxsən mən cavabı belə verərdim:

- Tanış olun, şərəfsizlər kralı -Vidadi İsgəndərli!

# “Dağlıq Qarabağ ermənilərinin ən böyük düşməni Ermənistan erməniləridir”

***“Nikol Paşinyanın Dağlıq Qarabağın “de-fakto” rəhbərliyinə qarşı neqativ münasibəti göz qabağındadır”. SİA-nın xəbərinə görə, bunu politoloq Mübariz Əhmədoğlu dünən keçirilən “Qarabağ saatı”nda jurnalistlərə açıqlamasında deyib.***

O bildirib ki, bunun çoxlu səbəbləri ola bilər. Paşinyanın xarakterinə görə dəyişən adam olduğunu deyən politoloq söyləyib ki, Paşinyan nə qədər Dağlıq Qarabağ separatçılığı ilə bağlı müsbət ritorika səsləndirsə də, nəhayət ki, haçansa fikrini dəyişməli idi. Paşinyan hesab edir ki, Dağlıq Qarabağ Ermənistanın inkişafına əngəl törədir. Sasun Mikaelyanın Ermənistandakı “məxməri inqilabı” Dağlıq Qarabağın azadlıq mübarizəsindən üstün tutması ilə bağlı fikrinə Dağlıq Qarabağdan verilən reaksiya Paşinyanı qıcıqlandırdı və Dağlıq Qarabağın “de-fakto” rəhbərliyini hədələdi. Paşinyan üçün dünyada ən böyük müqəddəs şey Ermənistandakı məxməri inqilabdır. Dağlıq Qarabağda azadlıq mübarizəsi lokal bir məkanda baş verən hadisədir, “məxməri inqilab” isə dünya miqyaslı hadisədir”.



M.Əhmədoğlu söyləyib ki, Dağlıq Qarabağ rəhbərliyini idarə olunan vəziyyətə salmaq üçün belə vəziyyət yaratmaq Paşinyanın idarəetmə stilidir: “Azərbaycanlı girovların Şuşa həbsxanasından Yerevana gətirilməsinə Dağlıq Qarabağın de-fakto rəhbərliyinin icazə verməməsi Nikol Paşinyanın şərəfinə toxunub. Qəzəbin L. Mnasakanyanın üzərində fokuslanması da təsadüfi deyil:. azərbaycanlı girovun qaytarılmasını Dağlıq Qarabağda hərbi-siyasi vəziyyətə pis təsir edəcəyinin əsaslandırmasını B.Saakyanın tapşırığı ilə L.Mnasakanyan edib. L.Mnasakanyan N.Paşinyanın Dağlıq Qarabağda hərbi xidmətdə olan oğlunu həqiqi hərbi xidmətə məcbur edir. Ermənistanda həbslərin yeni dalğasına hazırlıq başlayıb. Eləcə də KTMT-nın keçmiş Baş katibi Yuri Xaçaturova qarşı başqa maddələr üzrə cinayət işinin qaldırılması indiki siyasi şəraitdə Paşinyana lazımdır. Y.Xaçaturov Ermənistanın Müdafiə nazirinin müavini olarkən Movses Akopyan qondarma Dağlıq Qarabağda müdafiə naziri idi və onların arasında narazılıq var idi. Çünki Movses Akopyan Seyran Ohanyanın sözü ilə Y.Xaçaturova qarşı intriqa ilə məşğul idi. Movses Akopyan ehtimal ki, Y.Xaçaturovun əleyhinə əvvəlki faktları vermək istəmir. Movses Akopyanı buna məcbur etməyin də ən yaxşı variantı Dağlıq Qarabağın de-fakto müdafiə naziri L.Mnasakanyandır. Çünki Mnasakanyan qondarma Dağlıq Qarabağda müdafiə nazirliyini məhz Movses Akopyandan alıb və onun külli miqdarda saxtakarlığı, yeyintisi üzə çıxardı. Görünür, Paşinyan L.Mnasakanyan vasitəsilə M. Akopyanı silkələyir və M.Akopyan da vəziyyətdən çıxmaq üçün Y.Xaçaturovun əleyhinə lazım olan digər ifadələri verir”.

Politoloqun sözlərinə görə, Dağlıq Qarabağ erməniləri N.Paşinyanın xəstə şüurunun formalaşdırdığı məntiqsiz siyasətinin zolağına düşüb və bu, Dağlıq Qarabağın daxilində reaksiyasız qalmayacaq: “Dağlıq Qarabağ ermənilərinin ən böyük düşməni Ermənistan erməniləridir” formulu yenidən aktuallaşacaq”.

# Antimilli təfəkkürlü "mühacirlər" və erməni lobbisinin dəmtutanları

*Vətən, xalq təəssübündən məhrum olan və Avropanın müxtəlif ölkələrində məskunlaşan "mühacirlər"in sosial şəbəkələrdə dövlətə, xalqa qarşı əxlaqsızcasına "qara piar" kampaniyasını davam etdirməsi şübhəsiz, anti-Azərbaycan dairələrin, erməni lobbisinin "ənənəvi layihələr"inin növbəti epizodudur. Hamımız yaxşı bilirik ki, anti-Azərbaycan dairələrin ölkəmizdə reallaşdırılan yerli və beynəlxalq əhəmiyyətli tədbirlər ərəfəsində "sapı özümüzdən olan baltaları" tora salaraq, öz çirkin və məkrli oyunlarına alət edərək, respublikamızı hədəfə alması uzun illərdir ki, "ənənə" halını alıb.*



**Sapı özümüzdən olan baltalar milli kimliklərini unutmuş əxlaqsızlardır**

Anti-Azərbaycan dairələrin, erməni lobbisinin və onlarla işbirliyində olan milli satqınların müxtəlif bəhanələrlə Qərbin ayrı-ayrı ölkələrində məskunlaşaraq zibilxanalarda küllənən orduxanların, turalların, məhəmmədlərin, rafayılların, eləcə də, AXCP sədri Əli Kərimlinin, "Milli Şura"nın rəhbəri C.Həsənlinin və onlarının tör-töküntülərinin, "yaldaşlar"ının el arasında deyildiyi kimi, "fısları yatacaq". Bu xəyanətkarlar öz ağalarından aldıqları "yemlərini" nəhəng pitonlar kimi udaraq, bir müddət gizlinə çəkilərək, onu həzm etməklə məşğul olacaqlar.

Azərbaycan əleyhdarlarının ikrah doğuran əməlləri bütün detalları ilə ortadadır. Onlar Azərbaycanın düşmənləridir. Bəs adını azərbaycanlı qoyaraq, onların dəyirmanına su tökən Vətən, millət dönüklərinin bu mənəviyyatsız, namərd əməllərinə nə ad vermək olar? Ölkəsinə, millətinə, şər-böhtan, təhqir yağdıran bu satqın "söyüş makinaları" cəmiyyətimizin böyük təpkisi və ictimai qınağına tuş olduqları üçün daha da aqressivləşiblər desək, yanılmarıq.

Bu gün Azərbaycana qarşı ermənilərlə çiyin-çiyinə vuruşan bu parazitlərin milliyyəti azərbaycanlı ola bilər. Amma Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli və digərləri pul, vardövlət toplamaq həvəsi milli kimliklərini unutmuş əxlaqsızlardır.

Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov sözügedən məsələ ilə bağlı bildirib ki, saxta "siyasi mühacirlər"i erməni lobbisi maliyyələşdirir: "Mitinq adı ilə ayrı-ayrı Avropa ölkələrinə gedirlər. Təbii ki, həmin xainlər orada işləmirlər. Ancaq ondan-bundan tapşırıqlar alırlar. Həmin saxta siyasi mühacirlər erməni lobbisinin ayırdığı pulla maliyyələşirlər".

Siyavuş Novruzov bəyan edib ki, saxta yollarla "siyasi mühacir" sənədləri düzəltdirmək istəyənlərə qarşı ciddi mübarizə aparılmalıdır: "Bu işdə, xüsusilə, hüquq-mühafizə orqanları mübarizə aparmalı və diqqətli olmalıdırlar. Belə müraciətlərin hər biri polis tərəfindən ciddi araşdırılmalıdır. Saxta yollarla "siyasi mühacir" statusu alanların bəziləri adlarını dəyişərək, ya erməni, ya da mənşəyi bilinməyən xarici adlar götürürlər. O mühacirlər bu gün Avropada küçə süpürməklə məşğuldurlar".

Antimilli təfəkkürlü "mühacirlər" və erməni lobbisinin dəmtutanları.

*Rəfiqə HÜSEYNOVA*

# Bakının mərkəzində tam yeni üslubda ilk Bakcell konsept mağazası açıldı



***İlin sonuna kimi buradan mobil telefon alan abunəçilərə 2019-cu il boyu pulsuz danışıq və gigabaytlarla pulsuz internet Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Bakı mərkəzində, Fəvvarələr meydanında tam yeni üslubda olan konsept mağazasını istifadəyə verib. İnnovativ konsepsiya əsasında dizayn olunmuş bu mağaza özündə nömrə və cihaz satışı ilə yanaşı müştəri xidməti funksiyasını birləşdirir.***

"Bakcell özünün üstün xidmətləri və ən sürətli mobil şəbəkəsi ilə çox əlverişli qiymətə yüksək keyfiyyət təklif edir. Biz çalışırıq ki, "Bakcell"in innovativ məhsul və xidmətlərini həm Bakı ərazisində, həm də Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərimiz üçün daha əlçatan edək. Bu il biz ölkənin müxtəlif regionlarında yeni satış və müştəri xidmətləri mərkəzlərinin açılışını etdik. Bu gün isə Bakının mərkəzində tam yeni konsepsiyaya malik innovativ mağazanı abunəçilərimizə təqdim edirik. Növbəti illər ərzində bu cür mərkəzlərin sayını artıracağıq", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Hacı Zeynalabdin Tağıyev küçəsi 19 (Fəvvarələr Meydanı) ünvanındakı yeni mağazanın açılışı ilə əlaqədar Bakcell şirkəti xüsusi kampaniya elan edib.

"2018-ci ilin dekabrın sonuna qədər bu mağazadan istənilən model mobil telefon alan hər bir müştəri gələn il pulsuz danışacaq və pulsuz internet əldə edəcək", deyə Nikolai Beckers əlavə edib.

Qeyd edək ki, kampaniya şərtlərinə əsasən, ilin sonuna kimi əldə olunan hər bir mobil telefonla bərabər Bakcell abunəçilərinə bir illik pulsuz və limitsiz şəbəkədaxili zənglər və hər ay 4 GB internet hədiyyə veriləcək. Abunəçi həmin interneti istifadə etdikdən sonra isə, hər bir gigabaytın qiyməti cəmi 0.25 AZN edəcək. Mağazadan telefon aksesuarları alan müştəriləri də maraqlı hədiyyələr gözləyir. Bakcell şirkəti özünün yüksək keyfiyyətli xidmətlərini və ölkədə ən yüksək sürətli mobil şəbəkəni Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə təqdim etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirməyə davam edəcək.

## Xədicənin qrant "jurnalistliyi"



RƏFIQƏ

Bəzən öz-özümə fikirləşirəm ki, bu, nə olan şeydir, yerindən duran əlinə qələm alıb deyir ki, "jurnalistəm". Əşşi, belə də jurnalist olar? Əvvəla, yaxşı jurnalist olmaq təkcə yazmaq qabiliyyəti tələb etmir. Əgər belə olsa idi, Lev Tolstoy, Ernest Hemenquey, Cek London... kimilər dünyanın ən yaxşı jurnalistləri olardılar. Söz yox ki, bu dahilər, söz sehrbazları, hər bir oxucunun qəlbinə yol tapmağı bacaran yazıçılar idi. Öz fikirlərini, ictimaiyyətdə oyatmaq istədikləri arzu və istəkləri, təbliğat məqsədli fikirlərini kağız üzərinə köçürürdülər. Amma bir əsas məqam odur ki, jurnalist düzgün nəticə çıxarmaq üçün baş verənlərə obyektiv, vicdanlı, qərəzsiz yanaşmalı, operativ olmalıdır. Təəssüf... Özünü "araşdırıcı jurnalist" adlandıran Xədicə İsmayıl kimiləri görəndə, od tutub yanırsan. Məgər Xədicə kimi qrant dəllalları vicdan, düzgünlük və müqəddəsliyin nə demək olduğunu bilirmi?

Dahi yazıçımız Cəlil Məmmədquluzadə demişdir: "Qələmin müqəddəs borcu xalqa xidmət etməkdir." Ancaq ictimai fikrə uğursuz mənfi təsir göstərən X.İsmayıl kurtizan həyasızlığı xarakterini bütün gücü ilə öz timsalında göstərən, sosial şəbəkələrdə təhqiramiz epiqramlar yazıb, onları tirajlamaqdan o yana keçməyən iyrənc satqındır. Xədicənin tarixçəsi şəxsi ambisiya və iddiaların sublimasiyasıdır. Eybəcərin eybəcəri olan bu, o X.İsmayıldır ki, bütün fəaliyyəti böhtan və yalanlar üzərində qurulub.

X.İsmayılın jurnalistika adını ləkələməsi fikirlərimizi təsdiqləyir. Qrantları bahalı "CİP"lərə çevirən X.İsmayıl kimilərin özünü "jurnalist" adlandırması, bir jurnalist kimi, məni təəccübləndirir. Çünki "qrant" Xədicə xaricdən pul alıb, hakimiyyətə qarşı çirkin kampaniyaların təbliğatçısı özünü "vicdanlı insan" kimi saysa da, bu, dəvəquşunun başını kolda gizlətməsinə bənzəyir.

# "Bakcell" şirkətinin daha bir satış və xidmət mərkəzi açılıb

Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin Bakıda daha bir satış və xidmət mərkəzinin açılışı olub. SİA xəbər verir ki, açılış mərasimində çıxış edən "Bakcell"in baş icraçı direktoru Nikolai Beckers bu mağazanın tamamilə yeni konsepsiyada və daha çox interaktiv elementlərlə tərtib olunduğunu bildirib. O, ilin sonuna kimi bu mağazadan telefon alan hər bir şəxsə şirkət tərəfindən hədiyyələr təqdim ediləcəyini deyib:




"Bakcell" yeni konsepsiyası ilə sizi təəccübləndirəcək. Mağazamızın tərtibatı tamamilə yenidir. Ümid edirəm, yeni konsepsiya satışlara da öz təsirini göstərəcək. Biz çalışacağıq ki, gələcəkdə bütün mağazalarımızı yeniləyək. Bundan başqa, ilin sonuna kimi yeni mağazamızdan telefon alan şəxslər 2019-cu ilin sonuna kimi şəbəkədaxili pulsuz zəngdən və meqabaytlarla dolu internetdən yararlana biləcəklər". Şirkət direktoru gələn il Bakcell MMC-nin yeni mobil telefonunun satışa çıxarılacağını da bildirib: "Gələn ilin birinci rübündə mobil telefonumuzu müştərilərə təqdim etməyi planlaşdırırıq. Telefon bütün müasir funksiyalara malik olacaq və çox sərfəli qiymətə satışa çıxarılacaq".

# Müasir beynəlxalq hüquqda insan haqları

**_2001-ci ilin yanvarından Avropa Şurasının bərabərhüquqlu üzvü olan Azərbaycan Respublikası Avropa məkanına sürətlə inteqrasiya etməkdədir._**

Ə.Əliyevin fikrincə, AŞ, əsasən, Avropa məkanında insan hüquqlarının müdafiəsini təmin edən təşkilat kimi tanınır. Şuranın hər bir üzvü hüququn ümumi prinsiplərindən və beynəlxalq hüququn fundamental prinsiplərindən olan və bir sıra beynəlxalq sənədlərdə, o cümlədən, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində öz əksini tapmış əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipini rəhbər tutmalıdır. Ölkəmizin AŞ-yə qəbul olunması Azərbaycanın Avropaya inteqrasiyasını sürətləndirməklə yanaşı, ölkədə hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsi, milli qanunvericiliyin AŞ-nin tələblərinə və Avropa hüquq standartlarına uyğunlaşdırılması, demokratik təsisatların, institusional mexanizmlərin yaranması, əsas insan hüquq və azadlıqlarının təmin edilməsi üçün real zəmin yaratmış oldu. AR AŞ-nin üzvu olmaqla, öz üzərinə bir sıra öhdəliklər götürmüşdür. Bu öhdəliklərdən biri də bir il ərzində insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (Avropa İnsan Hüquqları Konvensiyasının) və onun 1, 4, 6 və 7 saylı Protokollarının ratifikasiya edilməsi idi. Azərbaycanın öz üzərinə götürdüyü bu öhdəlik vaxtında yerinə yetirildi. Belə ki, qeyd olunan Konvensiya və onun 1, 4, 6 və 7 saylı Protokolları 25 dekabr 2001-ci il tarixdə Milli Məclis tərəfindən müvafiq bəyanatlar və vətəndaşlığı olmayan şəxslər, əcnəbilər, hüquqi şəxslər və digərləri) Avropa Məhkəməsinə müraciət hüququ, məhz 15 aprel 2002-ci il tarixdən, yəni Konvensiyanın Azərbaycana münasibətdə qüvvəyə mindiyi tarixdən yaranır. Burada, bir məqama da diqqət yetirmək zəruridir ki, əgər pozulmuş hüquq Konvensiyaya dair hər hansı Protokolda nəzərdə tutulubsa, məhkəməyə müraciət etmək hüququ həmin Protokolun, barəsində şikayət verilən dövlətə münasibətdə qüvvəyə minməsi tarixindən başlanır.

AİHK - təyinatı insan hüquqlarının müdafiəsini təmin etməkdən ibarət olan qocaman beynəlxalq müqavilədir. Bu Konvensiyanı insan hüquqlarına dair beynəlxalq sənədlər içərisində ən effektiv sənəd kimi dəyərləndirmək olar. Buna səbəb onun əsasında yaradılan və fəaliyyət göstərən səmərəli hüquq-müdafiə mexanizmidir. Bu, Konvensiyanın 19-cu maddəsi əsasında təsis edilən və daimi əsasda fəaliyyət göstərən AİHMdir. Məhkəmə, iştirakçı-dövlətlərin Konvensiya və əlavə Protokollarla öz üzərlərinə götürdükləri öhdəliklərə riayət etməyi təmin etmək məqsədilə yaradılmışdır. Avropa Məhkəməsi Avropa Konvensiyasında və ona əlavə Protokollarda təsbit olunmuş əsas insan hüquq və azadlıqlarının pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxan və fərdin, bilavasitə beynəlxalq məhkəməyə müraciətini təmin edən ilk ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanıdır.

Bununla əlaqədar, qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın işğal edilmiş əraziləri üzərində faktiki nəzarəti həyata keçirdiyindən, həmin ərazidə insan hüquq və azadlıqlarının pozulmasına görə, məhz Ermənistan Respublikası məsuliyyət daşıyır.

Müasir dövrdə Avropa Məhkəməsinin təşkili və fəaliyyətinin əsasları, onun yurisdiksiyası, məhkəməyə müraciət edilməsi qaydası və işlərə baxılma mexanizmi, məhkəmənin qərarlarının milli hüquqa təsiri və bununla bağlı digər məsələlərin araşdırılması xüsusi önəm kəsb edir və bu da bizim üçün həm nəzəri, həm də praktik baxımdan, olduqca əhəmiyyətlidir.

Buna görə də, yuxarıda deyilənlər, həmçinin, müasir dövrdə bu mövzunun nəzəri, xüsusilə də, praktik baxımdan aktuallığı və Azərbaycan hüquq elmi üçün xüsusi əhəmiyyəti nəzərə alınaraq, namizədlik dissertasiya işinin "Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası" mövzusunda işlənilməsi qərara alınmışdır.

Beləliklə, tədqiqatın aktuallığını şərtləndirən amillər aşağıdakı kimi təsnifləşdirilməlidir:

AŞ-nin üzvü olan və AİHK-ni ratifikasiya etmiş AR-nin Avropa Məhkəməsinin yurisdiksiyasını tanıması nəticəsində, Azərbaycan dövlətinin yurisdiksiyası altında olan hər bir şəxsin (o cümlədən də, hüquqi şəxslərin) Konvensiyada və Azərbaycan tərəfindən ratifikasiya edilmiş əlavə Protokollarda təsbit edilmiş hüquq və azadlıqla- qeyd- şərtlərlə ratifikasiya olunmuşdur. Avropa İnsan Hüquqları Konvensiyasına (AİHK, Avropa Konvensiyası yaxud Konvensiya adlandırılacaq) dair AR-nin bəyanatında deyilir: "Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat verməl iqtidarında deyildir".




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Z.Əliyev göstərir ki, AİHK-nın 59-cu maddəsində, əsasən, Konvensiya onu sonradan ratifikasiya edən dövlətlər üçün, onların öz təsdiqnamələrini saxlanılmağa verdikləri tarixdən qüvvəyə minir. AİHK və onun ratifikasiya edilmiş Protokolları Azərbaycana münasibətdə 15 aprel 2002-ci il tarixdən, yəni ratifikasiya haqqında sənədin depozitariyə verildiyi gündən qüvvəyə minmişdir. Konvensiyanın dövlətə münasibətdə qüvvəyə minmə tarixinin olduqca mühüm hüquqi əhəmiyyəti vardır. Belə ki, məhz bu tarixdən müvafiq dövlətin yurisdiksiyası altında olan şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM, Avropa Məhkəməsi, yaxud Məhkəmə adlandırılacaq) müraciət etmək hüququ yaranır. Azərbaycanın yurisdiksiyası altında olan şəxslərin (vətəndaşlar, AİHK-nın 46-cı maddəsinə əsasən, Avropa Məhkəməsinin qərarları məcburi xarakter daşıyır. Müvafiq olaraq, AİHM-nin Azərbaycana münasibətdə qərarları dövlət orqanları, o cümlədən, məhkəmələr üçün də məcburidir. Dövlətlər qərarın icrası ilə bağlı konkret tədbirlərlə yanaşı, gələcəkdə analoji pozuntuların qarşısını almaq üçün ümumi xarakterli tədbirlər də həyata keçirməlidirlər. AR-nin AŞ-nin üzvü olması, Avropa Konvensiyasını və onun müvafiq Protokollarını ratifikasiya etməsi Konvensiyada və ya əlavə Protokollarda təsbit olunmuş hüquqların pozulduğu halda və dövlətdaxili səviyyədə pozulmuş hüquqların bərpasına nail oluna bilinmədiyi hallarda vətəndaşların və dövlətin yurisdiksiyası altında olan digər şəxslərin Avropa Məhkəməsinə müraciət etməsinə imkan verir. Həmçinin, Ermənistandan deportasiya olunmuş və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində, bir çox hüquqları pozulmuş, əsasən də, Konvensiyaya əlavə 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə əlaqədar minlərlə soydaşımız işğalçı Ermənistana qarşı bu dövlətin də Avropa Konvensiyasına qoşulmasını nəzərə alaraq, Avropa Məhkəməsinə müraciət etmək imkanı əldə edirlər. rın pozulduğu halda, müvafiq şərtlərə əməl etdikdən sonra Avropa Məhkəməsinə müraciət etmə hüququnun yaranması ilə əlaqədar, bu məhkəmə orqanının fəaliyyəti aktuallıq kəsb edir. Avropa Məhkəməsinin yurisdiksiyasının (xüsusilə də, zamana görə yurisdiksiyasının) tədqiq edilməsinin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, Ermənistandan deportasiya edilmiş, həmçinin, torpaqların işğalı ilə bağlı məcburi köçkünə çevrilmiş şəxslərin onlara münasibətdə Avropa Konvensiyasının bir sıra müddəalarının, xüsusilə də, 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə bağlı Avropa Məhkəməsinə müraciət edilməsi baxımından əhəmiyyət kəsb edir.

Azərbaycana qarşı Avropa Məhkəməsi artıq bir neçə qərar çıxarmışdır. Yəni Azərbaycan Avropa Məhkəməsində artıq bir neçə dəfə tərəf kimi iştirak etmiş və etməkdədir. Hal-hazırda, bir neçə iş kommunikasiya mərhələsindədir. Hər il Azərbaycandan Avropa Məhkəməsinə təqribən 500-dək şikayət daxil olur. Yəni Azərbaycan-Avropa Məhkəməsi münasibətləri getdikcə genişlənir. Bu baxımdan da, Avropa Məhkəməsinin fəaliyyətinin araşdırılması xüsusi aktuallıq kəsb edir.

AR Prezidentinin "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 19 yanvar 2006-cı il tarixli Fərmanında, AR Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planı"nda, həmçinin, "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" AR Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli qərarında məhkəmələrə tövsiyə edilir ki, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı AİHK müddəalarını və Avropa Məhkəməsinin presedentlərini nəzərə alsınlar. Bütün bunlar Avropa Məhkəməsinin fəaliyyətinin, xüsusilə də, onun yurisdiksiyasının tədqiq edilməsini zəruri edir. Bu deyilənlər də tədqiqat işinin aktuallığını şərtləndirir. Avropa Məhkəməsinin presedent hüququnun milli qanunvericiliyin inkişafına, onun təkmilləşdirilməsinə mühüm təsiri vardır. Bəzi hallarda məhkəmənin qərarları yeni qanunvericilik aktlarının qəbuluna, cari qanunvericiliyə müəyyən əlavə və dəyişikliklərin edilməsinə, həmçinin, milli məhkəmə praktikasının təkmilləşdirilməsinə səbəb olur. Nəhayət, bu il AŞ-nin yaranmasından 70, AİHM-in fəaliyyətə başlamasından isə 60 ildən artıq keçmişdir. AŞ-nin 60 illiyi ilə bağlı Nazirlər Komitəsinin keçmiş sədri Migel Anxel Moratinos, AŞPA-nın sədri Luis Mariya de Puç və AŞ-nın keçmiş Baş katibi Terri Devisin birgə bəyanatında deyilir: "Biz qürur hissi duyuruq ki, 47 üzv ölkəni birləşdirən bu təşkilat 60 il ərzində azadlığı və insan hüquqlarını daim müdafiə etmişdir. Onun ən böyük nailiyyəti 800 milyon avropalının əsas hüquqlarını müdafiə edən və Avropa İnsan Hüquqları Məhkəməsinin nəzarəti ilə həyata keçirilən Avropa İnsan Hüquqları Konvensiyasıdır."

AİHM-in fəaliyyətinin tədqiqinə həsr olunan bu dissertasiya işinin müdafiəyə, məhz yuxarıda qeyd olunan əlamətdar tarixi hadisələr, xüsusilə də, Avropa Məhkəməsinin yubileyinin qeyd edildiyi dövrdə təqdim edilməsi onun əhəmiyyətini bir qədər də artırmış olur.

**_VAHİD ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**

## Yaponiyada ev heyvanını əvəz edən robot satışa çıxarılıb



Yaponiyada ev heyvanını əvəz edə bilən süni intellektli robot satışa çıxarılıb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, "Groove X" kompaniyası tərəfindən ələ götürülmək üçün hazırlanan "Lovot" (Love və robot sözlərinin kombinasiyası) öz sahiblərini yadda saxlaya bilir. Güclü kompüter və süni intellekt sistemi ilə təchiz olunan robot yelləndiyi zaman yatır, həmçinin müxtəlif məharətlər göstərir.

Robot ona quraşdırılan kamera sayəsində təhlükəsizlik və evdə tək qalan uşaqlara nəzarət sistemi kimi də istifadə oluna bilər. O, ətrafında olan insanların davranışını təsbit edir və buna uyğun olaraq onlara münasibət göstərir. Məsələn "Lovot" onu vuran və ya xətrinə dəyən insandan qaçmağa başlayır. Cüt halda satılan robotun qiyməti təxminən 5 min dollara yaxındır.

## Dünyada ən bahalı çörək İspaniyada 192 avroya satılır



Xuan Manuel Morenonun çörəkxanasında çörək-bulka məmulatının ən eksklüziv növü qızıl pudra ilə örtülmüş dəyirmi formalı çörəkdir. Onun çəkisi 400 qramdır. AZƏRTAC xəbər verir ki, reseptə görə, bu çörək İslandiyadan gətirilmiş təmiz sudan və çörəkçinin özünün hazırladığı mayadan istifadə etməklə bişirilir. "Qızıl" çörəyin qiyməti 192 avrodur. Daha üç çörək növünün tərkibində qiymətli metallardan - qızıl və gümüşdən yeməli pudra var. Bu çörəklər də bahalıdır. Ən ucuzunun qiyməti 98 avrodur. Bir neçə həftə əvvəl Xuan Manuelin adı "Ruta del Buen Pan 2018"in versiyasına görə ən yaxşı çörəkçilər siyahısına daxil edilib.

## Salvador Dalinin əsəri hərraca çıxarılıb

Məşhur sürrealist rəssam Salvador Dalinin hazırladığı xərçəng dəstəkli telefon hərraca çıxarılıb. Əsər Böyük Britaniya muzeylərinə satış qiymətinə uyğunlaşma imkanı verildikdən sonra 853,000 funta Şotlandiya Milli Qalereyası tərəfindən alınıb. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, sənət əsəri bundan sonra Edinburqdakı Müasir İncəsənət Qalereyasında nümayiş olunacaq.



Qeyd edək ki, 1930-cu ildə Salvador Dali öz rəhbəri Edvard Ceyms üçün 11 ədəd belə telefon düzəldib. Qalan 10 telefon isə hazırda ABŞ, Almaniya, Hollandiya, Portuqaliya, Avstraliyadakı muzeylərdə saxlanılır.

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Abbasova Gülnarın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə III kurs tələbəsi Rüstəmov Hüseyn İlham oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**14.10.2010-cu il tarixində 1601250001 saylı qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış "CAPİTAL MOTORS" MMC təşkilatı hüquqi formasını dəyişdirilərək, "CAPİTAL MOTORS" QSC-yə çevrilərək, yenidən təşkil olunduğunu elan edir.**

**X X X**

**06.04.2011-ci il tarixində 1601325211 saylı qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış "GREAT MOTORS" MMC təşkilatı hüquqi formasını dəyişdirilərək, "GREAT MOTORS" QSC-yə çevrilərək, yenidən təşkil olunduğunu elan edir.**

## Fernando Alonso: 2018-ci ildə ən yaxşı yürüşüm Bakıda olub



Formula 1 dünya çempionatında müxtəlif komandaların tərkibində çıxış etmiş ikiqat dünya çempionu Fernando Alonso ötən mövsümlə bağlı fikirlərini paylaşaraq vurğulayıb ki, onun 2018-ci ildə ən yaxşı yürüşü Azərbaycan Qran-Prisində olub.

AZƏRTAC "Marca" nəşrinə istinadla xəbər verir ki, Alonso deyib: "Yarışlarda yaşadığım hisslər və həyəcan baxımından mövsümdə ən yaxşı yürüşüm Bakıda keçirilən mərhələdə olub. İlk dairədən sonra biz sonuncu yerdə idik, mənim maşınım isə nasaz vəziyyətə düşmüşdü. Bizim elə bir ümidimiz qalmamışdı, lakin son nəticədə yeddinci yeri tuta bildik. Bu, mənim uzun illərdən bəri yerinə yetirdiyim ən yaxşı yürüş oldu". Ötən mövsümdə Fernando Alonso 2018-ci ildən sonra Formula 1-i tərk edəcəyini açıqlamışdı. Bununla belə, ispaniyalı bir ildən sonra çempionata qayıdacağını da istisna etmir.

## Qarabağ atları London Beynəlxalq Atçılıq Şousunda çıxış edəcək




Azərbaycan Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Qarabağ atları dekabrın 19-dan 23-dək Londonda Olimpiya Beynəlxalq Atçılıq Şousunda çıxış edəcək. ARAF-dan bildiriblər ki, olimpiya üçün hazırlanan nümayiş "Odlar yurdu Azərbaycan və Qarabağ atı" kimi tanınır. Nümayişdə 12 at və çapar iştirak edəcək. Nümayişin məqsədi Azərbaycanın mədəni irsini qlobal auditoriyaya çatdırmaqdır. Zəngin mədəniyyət əsrlərboyu Azərbaycan xalqının qəhrəmanlığını, cəsarətini və qorxmazlığını nümayiş etdirən milli rəqs və musiqimizin müşayiəti altında Qarabağ atlarının gücünü və möhtəşəm bacarıqlarını əks etdirən şou ilə nümayiş olunacaq.

## "Qarabağ" klubu Reynaldo Silvanı heyətinə qatıb




Dekabrın 19-da Ağdamın "Qarabağ" futbol klubu 2018-2019-cu il mövsümünün qış transfer pəncərəsində sabiq futbolçusunu - braziliyalı Reynaldo Silvanı heyətinə qatıb. Klubun saytında yer alan məlumata görə, futbolçu ilə iki il yarımlıq müddətə müqavilə imzalanıb.

Braziliyalı futbolçu transferlə bağlı açıqlamasında deyib: "Evimə gəldiyim üçün xoşbəxtəm. Karyeramın ən gözəl anlarını burada keçirmişəm. "Qarabağ"ın forması ilə yenidən meydana çıxmağı səbirsizliklə gözləyirəm. Yaxşı formada olmağım üçün əlimdən gələni edəcəyəm. Klub rəhbərliyi, məşqçi heyəti, azarkeşlər, bir sözlə, bütün "Qarabağ" ailəsi mənim üçün çox doğmadır. Buraya komandaya fayda verməyə və "Qarabağ" ilə yeni uğurlar qazanmağa gəlmişəm".

## UEFA Çempionlar Liqasının qrup mərhələsinin rəmzi heyəti açıqlanıb

Dekabrın 19-da UEFA qitənin ən nüfuzlu klub turnirinin - Çempionlar Liqasının qrup mərhələsinin rəmzi "11-liyi"ni açıqlayıb. Qurumun saytında yer alan məlumata görə, "Fantasy Football"da yığılan xallar əsasında tərtib edilən ilk "11-lik"də 9 fərqli klubun oyunçusu yer alıb. Rəmzi heyətdə Voytsex Şensnı ("Yuventus", İtaliya), Xordi Alba ("Barselona", İspaniya), Leonardo Bonuççi ("Yuventus", İtaliya), Nikolas Talyafiko ("Ayaks", Hollandiya), Rafael Gerreyru ("Borussiya Dortmund", Almaniya), Karlos Soler ("Valensiya", İspaniya), Nikola Vlaşiç (MOİK, Rusiya), Cengiz Ünder ("Roma", İtaliya), Mussa Mareqa ("Portu", Portuqaliya), Duşan Tadiç ("Ayaks", Hollandiya), Robert Levandovski ("Bavariya", Almaniya). Qeyd edək ki, UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsinin ilk oyunları fevralın 12-13-də və 19-20-də keçiriləcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**